**İlbəst Ərzumanqızı**
**Arzuman İlyasoğlu**

# İlhamın Kəlbəcər sevdası
# Кельбаджарская мечта Ильхама
# Ilham's passion for Kalbajar

*(kinohekayə-фильмрассказ-filmstory )*

**Bakı-2021**

**Qarabağ uğrunda şəhid olmuş igidlərimizin xarirəsinə**

“İlhamın Kəlbəcər sevdası” - eyniadlı, tammetrajlı bədii film ssenarisi əsasında yazılmışdır.

“Orxan” NPM. Bakı-2021. səh 120

Redaktorlar: **İlqar Türkoğlu**
**Ceyhun Əliyev**
Məsləhətçilər: **Aysel Onur**
Tərtibatçılar: **Təranə Hüseynova**
Korrektorlar: **Nərminə Süleymanova**
**Leyla Hüseynova**
Dizayner: **Elçin Babayev**

İSBN 978-9952-37-521-3

# GİRİŞ

**1993-cü ilin mart ayı.**

Bu ilki Novruz bayramı kəlbəcərlilər üçün heç də xoş günlər vəd etmirdi. Bütün azərbaycanlılar kimi, onların da bayramı təmtəraqlı qeyd etmələri mümkün deyildi. Bir tərəfdən erməni silahlıları, digər tərəfdən qışın son günlərinin sərt keçməsi yaşayışlarını dözülməz hala salmışdı.

Sərhədə yaxın ərazidə yerləşən Zərifəgilin kəndi dağ döşündə yerləşirdi. Çox da böyük olmayan bu kənd rayonun başqa kəndlərinə nisbətən daha dözülməz halda idi. Demək olar ki, kənddə başıpapaqlı qalmamışdı.  Kişilərin əksəriyyəti könüllü olaraq Qarabağın düşməndən qorunmasında iştirak üçün səfərbər edilmişdilər.

Son günlər ermənilər silahlı dəstə ilə kəndə daxil olur, açıq-aşkar sakinlərdən kəndlərini tərk etməyi tələb edirdilər. Kənddə lazımi qaydada cavab verəcək başı papaqlı qalmadığından ermənilər günü-gündən azğınlaşırdılar. Silahlı ermənilər kənd sakinləri ilə davranışlarında faşistləri yamsılayaraq insanlarda xof yaratmağa çalışırdılar.

Zərifənin üç uşağı var idi. Əkiz oğlanları, Kərəm və Kənan beş yaşında idilər, qızının isə dörd yaşı hələ tamam deyildi. Qarabağın döyüş zonasına könüllü yollanmış əri Əkrəmdən iki ildən çox idi ki, xəbər-ətər yox idi. Rayon mərkəzi kənddən uzaqda yerləşdiyindən ərinin taleyindən xəbər tutmaq ümidi ilə bircə dəfə hərbi komissarlığa müraciət edə bilmişdi. Onda da, “gördüm” deyən olmamışdı.

Kənd sakinləri bütün çətinliklərə baxmayaraq, Novruz bayramını adətləri üzrə kəndin ortasında tonqal yandırmaqla qarşılamağa hazırlaşırdılar. Onların bu hərəkəti erməni silahlı birləşməsinin başçısı Vazgeni bərk qəzəbləndirmişdi. O, günü sabah azərbaycanlıları kənddən qovmağı qərara almışdı.

***

Hədə-qorxu gəlməklə yanaşı, erməni yaraqlıları kənd sakinlərinin örüşə buraxılmış ev heyvanlarını da oğurlamağa başlamışdılar. Demək olar ki, hər gün kiminsə inəyi, danası it-bata düşürdü. Odur ki, sakinlər mal-qarasını örüşə buraxmır, kəndin kənarında uzun kəndirlə ya ağaca bağlayır, ya da yerə mıx çalmaqla otarırdılar. Həm heyvanın hansısa ağacın başına dolanıb qalmasını yoxlamaq, həm də otlaq yerini dəyişmək üçün gün ərzində bir neçə dəfə mal-qaraya baş çəkməli olurdular.

Həmin gün, günortadan sonra Zərifə inəyinin otlaq yerini dəyişmək üçün getmək istəyərkən, oğlu Kənan ağladığı üçün onu özü ilə aparmaq qərarına gəldi.

***

Zərifə meşə kənarına bağladığı inəyin otlaq yerini dəyişdi. Ara-sıra atəş səsləri eşitdiyindən narahat olub, ürəyində "ermənilər yenə də atmağa başladılar" fikirləşib, tez-tələsik Kənanın əlindən tutaraq evinə tərəf yollandı. Meşədən çıxanda kəndin girəcəyindən yoxuşu dik qalxan maşını görüb Kənanı qucağına alıb addımlarını yeyinlətdi.

***

Adətən, ermənilər sakinlərdə vahimə yaratmaq üçün əllərindəki avtomatdan havaya atəş aça-aça dəstə halında kəndə

daxil olurdular. Bu gün isə onlar sakitcə, bir neçə dəstəyə bölünüb müxtəlif səmtdən kəndə girmişdilər. Məqsədləri sakinləri bir-birindən xəbərsiz öz evlərindən çıxarmaq idi. Onlar evlərə daxil olub, yarım saat ərzində kəndi tərk etməyi tələb edirdilər. Kəndi tərk etmək istəməyənləri ölümlə hədələyirdilər.

***

Yarım saatın tamamında dəstə başçısı Vazgen iki silahlının müşayəti ilə kəndə daxil oldu. Kəndin girəcəyindəki yoxuşu qalxan kimi qucağında uşaq tələsik addımlayan Zərifə göründü. Sürücü onu görən kimi "xoruzlandı".

- Odur ey, biri də qaçır.- deyib, Vazgenə baxdı.- Bəlkə, maşının altına salıb sürüyüm?

Vazgen əli ilə maşını saxlamağı işarə etdi, bir anlığa fikirləşdi.

- Sənlik deyil. - əlini geriyə tərəf uzatdı.- Aşot, o arvadı verdik sənin ixtiyarına. Azərilər necə deyirlər? "Meşə xəlvət, tülkü bəy". İstədiyin kimi rəftar edə bilərsən.

Aşot sakitcə dilləndi:

- Yox, mənə lazım deyil.

-Kişi deyilsən?- deyib, sürücü Vazgenə tərəf baxıb hırıldadı.

- Ağlın bizimkilərə getməsin. Azərbaycanlılarda namus adında bir şey var ki, ona toxunmaq özünə ölüm hökmü vermək kimidir. Səhəri gün adamı yeri deşiyindən də olsa tapıb, başına oyun açarlar. – deyib, Aşot udqundu.

Aşotla birgə arxa oturacaqda oturmuş silahlı erməni istehza ilə gülümsədi.

- Güllələməyə nə sözün?

Aşot:

- Güllələməyinə güllələyərəm. Doğrusu əlim gəlmir, neçə illərdi ki, uşaqlarıma bu kəndin adamları sayəsində çörək qazanırdım. Bir də ki, bayaqdan güllələyə-güllələyə gəlirsiz. Axı, hamını güllələsək kənddən neçə nəfəri qovmağımızı necə sübüt edəcəyik. Yaxşısı budur ki, bunların var-dövlətini əllərindən alıb yola salaq.

-Aşot düz deyir. Öldürmək lazım deyil. Türklərin hamsını bir yerə yığın. Onları "təntənə" ilə yola salmaq lazımdır ki, bu torpaqlardan əllərini birdəfəlik üzsünlər.- deyib,Vazgen sürücüyə irəli surməyi işarə etdi.- Aşot, bunları da qabağına salıb gətir poctun yanına.

Maşın Zərifənin bərabərliyinə çatanda dayandı. Aşot könülsüz halda maşından düşən kimi Vazgen əli ilə "irəli" işarəsi verdi. Aşot Zərifəyə tərəf addımlasa da, gözaltı maşının dalınca baxırdı.

- Köpək usağı.Yeravandan gəlib cavanlarımızın da beynini xarab etdilər. Özləri səhər-biri gün rədd olub gedəcəklər, bizim yaxamız azərbaycanlıların əlidə qalacaq.- Aşot ürəyində gileyləndi.

Maşın Zərifəgildən biraz aralanmışdır ki, dayandı. Vozgen Aşota işarə edib narazı halda dilləndi:

- Əsil Qarabağ eşşəyidir. Biz haystandan ev-eşiyimizi niyə atıb gəlmişik? Gəlmişik ki, türkləri bu torpaqdan qovaq. Eşşək Aşot kimiləri üçün təzə torpaq, vətən düzəldək, böyük haystan yaradaq, bu nankopların bəziləri də türklərə güllə atmaq istəmirlər.

- Qorxurlar də, Vazgen can.- deyib, sürücü kinayə ilə ağzını büzdü.

Vozgen:

-Sən də söz danışdın, nədən  qorxurlar? Avtomat, silah-sursat bizdə, dillənənin başına bir güllə çax, qurtarsın getsin.

Sürücü:

- O gün, İstisuda birindən soruşuram ki, niyə türklərin qovulmasına könülsüz  qoşulurlar.  Aşot kimi bir zırraması nə cavab versə yaxşıdı.

Maşının arxa oturacağında oturmuş silahlı erməni Vazgenə xoş gəlmək üçün əda ilə soruşdu:

- Nə cavab verdi?

Sürücü:

- Dedi ki, "Yeravanda oturub yekə-yekə danışmağınıza baxmayın. Siz bu türkləri yaxşı tanımırsız. Axır-əzəl öz vətənlərini zor gücünə də olsa geri alacaqlar. İndi güc bizdədir, onları əzib qovuruq. Sizin nə vecinizə, bu torpaqda yaşayan deyilsiz ki. Bu zülmü ki biz onlara edirik, vaxt gələcək, bunun ağrısını siz yox, biz Qarabağ erməniləri çəkəcəyik".

Vazgen gülümsədi:

- Sən ona başa salmadın ki, bizim qarşımızda türk davam gətirə bilməz!

Sürücü:

-Deməyinə, dedim ey, amma, başa düşüb- düşmədiyini anlamadım.

Vazgen:

- Bu gün onların "Novruz bayram"larını qara bayrama döndərəcəyəm. Türkləri düz Bakıya kimi qovmaq lazımdır!

Silahlı erməni:

- Vazgen, bəs deyirdin ki, türklərin hamsını qırmalıyıq. Indi də deyirsən qovmaq lazımdır. Deməli, hamsını salamat buraxacağıq?

Vozgen:

-Ara, sən nə sadəlövh adamsan. Kimdir onların hamsını salamat buraxan. Dünyaya göstərmək üçün onlarla mehriban formada şəkil çəkdirərik. Sonra neçəsini istəsən güllələ getsin, kimdir sənə söz deyən. "İt yiyəsini tanımır", türklərin öz məsəlidir.

Sürücü:

- Doğru buyurursan. Güllələmədiklərimizin də yarısı meşədə qurd-quşa qismət olar.

Vazgen arxaya dönür, başı ilə Aşota işarə edib, vəftiz edir *(əli ilə sinəsinə xaç çəkmək)*:

- Yazıq Aşota azad Arsaxı görmək qismət olmadı, bəxti gətirmədi… Neyləmək olar, türk vəhşiliyidir. Sür gedək mərkəzə.

Erməni həyacanla əvvəlcə Vazgenin üzünə, sonra Aşot tərəfə baxdı:

- Anladım, imkan olan kimi türk qardaşlarının yanına, ruhu şad olsun.- deyib, vəftiz edir.

***

Aşot Zərifəyə yaxınlaşan kimi avtomatı ona tuşlayıb:

- Ey, düş qabağıma.- deyib, pocta tərəf getməyi işarə etdi.

- Bizi hara aparırsan?- Zərifə qorxaq halda soruşdu.

- Poctun yanına getməlisən, hamı ora toplaşmalıdır.-deyib, Aşot avtomatın lüləsi ilə Zərifəni itələdi.

Zərifə dinməzcə uşaq qucağında pocta tərəf addımladı. Vazgenin maşını gözdən itən kimi Aşot avtomatı çiyninə asdı. Maşın səsi kəsilən kimi Zərifə dayandı.

- Aşot qardaş, 2 uşağım evdə qalıb, icazə ver onları da gətirim.

Aşot:

- Bu Yeravan əclafları sizi nə qədər çöldə, soyuğun altında saxlayacaqlar, allah bilir. Sənə icazə versəm mən də zibilə düşərəm. Uşaqların evdə otursalar yaxşıdır. Dayanma, poctun qabağına getməliyik.

Zərifə:

- Sən bilmirsən, bizi niyə poctun yanına yığırlar?

Aşot:

- Hamıya xəbərdarlıq edəcəklər ki, azdan-çoxdan nə istəsəniz götürüb günü bu gün kəndi tərk edəsiniz.

Zərifə:

- Ağzı axşama gedir, bu soyuqda kənddən çıxıb hara gedəcəyik? Yaxın kəndə catmaq üçün dağ qalxıb-aşmalıyıq. Gecə meşədə ayı-canavara rast gələrik.

Aşot:

- Mən də başa düşürəm. Amma, getməyənləri gecə ikən güllələyəcəklər. Allah bəlalarını versin, Xoruz kimi qanad çalmağı sevirlər. Başa düşmürlər ki, qanadı olsa da xoruz göylərə uça bilməz, onun vətəni hindi ki, var. Bizim ən böyük faciəmiz ağıllanmamağımızdır. Gül kimi yaşayırdıq də. Hansısa axmaq erməninin ucbatından ömrülük düşmən qazandıq.

Zərifə oğlu Kənanı qucağına sıxıb yoluna davam etdi.

***

Poct şöbəsinin qarşısında vəziyyət çox gərgin idi. Silahlı ermənilər kənd camaatının əksəriyyətini məcburən evdən çıxarıb bura toplamışdılar. Kəndin kənar hissəsində yaşayanları, yaşlı adamları da bir-bir silahla hədələyib gətirirdilər.

Kənd sakinlərinin özləri ilə aparmaq istədikləri zəruru əşyaları əllərindən alınıb, topa şəklində poctun qabağına yığılmışdı. Gec gələnərə də əşyalarını həmin topaya qoymağı əmr edirdilər.

- Tələsin, yeməklərinizdən başqa bütün əşyalarınızı bura qoyun. Aparmaq istədiyiniz erməni xalqına məxsusdur.-deyə, vaxtı ilə kənd sakinlərinin həyatində çörəkpulu qazanan Xoren, hamını bircə-bircə yoxlayırdı.

***

Yoxuşu qalxan kimi Zərifə kənd sakinlərinə qarşı vəhşi davranışı görüb dayandı.

-Dayanma, yoxsa, başına bir güllə çaxaram ha.-deyib Aşot cəld avtamatı Zərifənin üstünə tuşladı. Gözaltı silahlılara baxıb dediyini ermənicə bərkdən təkirarladı.

-Aşot qardaş, bəs uşaqlarım?- Zərifə sakit səslə soruşdu.

Aşot pərt halda mızıldandı:

- Dinmə, deyəsən vəziyyət yaxşı deyil.

Zərifə heç nə demədən həmkəndlilərinin yanına tərəf addımladı. Aşot avtomatı onun belinə dirəyərək poctun qarşısınadək gəlib dayandı.

Aşotun Zərifənin üstünə ermənicə çığırması nəinki, kənd sakinləri, eləcə də silahlı ermənilərin də diqqətini cəlb etdi. Vazgenin yanında dayanmış erməni Aşota işərə

edərəkgülümsədi. Zərifəgil onların bərabərliyindən keçəndə Vazgenə tərəf dönüb, ona göz vürdü.

Vazgen silahlının nə demək istədiyini anladı. Əli ilə ona yaxına gəlməsini işarə etdi. Silahlı erməni Vazgenin yanına gəlib fərəqət formada dayandı.

- Artislik edir. Ay özün öləsən, türkün quyruğu. Gör, kimə kəf gəlir. Gecə ikən yola salarsan.- Vazgen gözünü kənddə baş verən hadisələrdən çəkmədən tapşırığını verdi.

Silahlı erməni başı  ilə "başa düşdüm" işarəsi verib, Vazgendən aralandı.

Evlərindən təzə çıxarılmış adamlar bir-bir əşyalarını atıb dəstə ilə dayanmış sakinlərın yanına keçirdi. Kəndin ağbirçəklərindən sayılan Fatma sağ əlindəki bağlamanı başqaları kimi dinməzcə topa yığılmış əşyaların üstünə atdı.

Sol əlindəki çörək boxçasını sağ əlinə keçirərkən əşyaların yığılmasına nəzərət edən Xorenin gözü Fatmanın barmağındakı iri üzüyə sataşdı. Fatma yaylığı ilə üzüyün üstünü örtüb həmkəndlilərinə tərəf bir neçə addım atmışdır ki, Xoren onu səslədi.

- Fatma qarı, geri qayıt.

Fatma Xorenin səsini eşidib dayandı. Amma, geri qayıtmaq istəmədi. Fatmanın geri qayıtmaq ismədiyini görüb, Xoren yüksək səslə yenidən onu səslədi.

- Fatma qarı, qayıtmağa ərinirsənsə, uşaqlara deyim, səni sürütləyib gətirsinlər.

Fatma dillənmədən yoluna davam etmək istədi, atəş açıldığını eşidib, yenidən dayandı. Silahlılardan biri Xorenin işarəsi ilə cəld Fatmanın qarşısını kəsdi. Xoren yaxınlaşıb,

avtomatı onun kürəyinə dirədi.

- Qoca kaftar, üzüyü niyə gizlədirsən, goruna aparacaqsan?- dedi.

Fatma nifrət dolu baxışla Xorenin dik üzünə baxdı.

- Xoren, nişan üzüyümdür.

Xoren ətrafdakı ermənilərə baxıb qəhqəhə ilə güldü:

- Bu vəziyyətdə sənə nişan üzüyü yaraşır? Bir ayağın burda, biri gördadır. Bəlkə cəhənnəmdə yenidən Nəbi ilə nişanlanmaq istəyirsən. – deyib, dediklərini ermənicə təkrar etdi.

Ermənilərin bir çoxu iztehza ilə gülsə də, Vazgen ciddi görkəm alıb, hadicənin necə nəticələnəcəyini izləyirdi. Xoren Fatmanın dinmədiyini görüb, əl atıb üzüyü Fatmanın barmağından çıxarmaq istədi.

- Murdar əlini geri çək. Nəbinin sənə verdiyi çörək haramın olsun.- deyib, Fatma barmağından üzüyü çıxarıb Xorenin sifətinə çırpdı.

Vazgen tənəli şəkildə Xorenin üzünə baxıb qəhqəhə ilə güldü. Onun gülüşünə bütün ermənilər qoşuldu. Xoren pərt olmuş halda əvvəlcə Vazgenə, sonra tənə ilə gülən silahlılara baxdı. Özünü təhqir olunmuş hiss edib, avtomatla Fatmaya atəş açdı.

Kənd sakinləri al-qan içində yerə yıxılmış Fatmaya yaxınlaşmaq istəyərkən Vazgen əlindəki avtomatla onların başları üstünə atəş acdı. Sakinlərin geri çəkilmədiyini görüb, bir neçə silahlı erməni də avtomatdan atəş açmağa başladı.

Vazgen silahlılara hirsləndi:

-Deyəsən bunların nazı ilə çox oynadıq. Yola salın getsinlər. Getmək istəməyənləri yerindəcə güllələyin.

Silahlılar dayanmadan səmaya atəş açıb kənd sakinlərini qorxudaraq məcburi qaydada, vəhşiliklə kənddən qovmağa başladılar. Zərifə Kənanın əlini qonşu qadına verərək evinə tərəf qaçmaq istədi. Silahlı erməni onun ayağından güllə ilə vurdu. Iki cavan sakin yıxılmış Zərifənin qultuğundan tutub özləri ilə aparsalar da, evi istiqamətinə baxıb fəryad edirdi.

- Mənim balalarım…Kərəm…Gözəl….

Vazgen Zərifəni aparan cavanlara işarə edərək yanındakı silahlıya sakit səslə göstəriş verdi:

- Kənddən çıxan kimi birinci onları güllələyərsən.

- Bəs qalanları, onlar necə olsun?-deyə, silahlı soruşdu.

Vazgen fikirli halda dilləndi:

-Dünyanın işini bilmək olmaz, dövran dəyişər. Xoren elə bir qələt elədi ki, kənddən gələcəkdə şahidlik edəcək bir kimsə qalmamalıdır. Aşot da şahiddir.

Silahlı erməni:

- Baş üstə.- deyib, sakinləri qovan ermənilərin yanına qaçdı.

Vazgen sakinlər gözdən itənə kimi onların arxasınca baxdı. Bir azdan aramsız atəş səsləri eşidilməyə başladı. Atəş səsi kəsildikdən sonra silahlı ermənilər kəndə qayıtdılar.

Gələnlər arasında Aşotu görməyib, Vazgen maşına minmək istədi. Bu vaxt silahlı ermənilərdən birisinin iki uşağı- Zərifənin evdə qalan 4 yaşlı qızı Gözəli və 5 yaşlı oğlu Kərəmi sürüyə-sürüyə ona tərəf gətirdiyini görüb, ayaq saxladı.

Onlar yaxınlaşan kimi Vozgen soruşdu:

- Kimdir bunlar?

Silahlı erməni:

- Türk küçükləridir, evdə gizlənmişdilər. Gətirdim ki, camaatla birgə rədd olub getsinlər.

Vazgen:

- Gecdir, hamısını yola salmışıq.-başı ilə əks tərəfdəki meşəyə işarə edir.- Apar, bunları da yola sal.

Silahlı erməni:

- İkisini də?

Vazgen biraz fikirləşdi:

- Oğlandan adını soruş.

Silahlı erməni Kərəmdən soruşdu:

- Adın nədir?

Kərəm qorxa-qorxa cavab verdi:

- Kərəm.

Silahlı erməni:

-Vazgen can, adı Kərəmdir.

Vazgen biraz da fikirləşdi:

- Oğlanı otuzdur maşına.Türklər işləri düzəlmək üçün qurban deyirlər. Mən də işimiz düzəldiyi üçün, sabah kəndin ortasında onu qurban kəsəcəm.

Silahlı erməni:

- Bəs, qız, bunu neyləyim? -Gözələ işarə edib, soruşdu.

Vazgen:

- Onun doğduğu da türk olacaq də. Güllələ.

Kərəmi arxa oturacağa, mühafizəçinin yanına mindirdilər. Vazgen silahlılara öz göstərişini verdikdən sonra maşına mindi. Maşın yerindən tərpəndikdən sonra Kərəm qorxaq baxışları ilə bacısını axtarmağa başladı. Silahlı erməninin Gözəli meşəyə tərəf apardığını gördü.

Çox keçmir ki, atəş səsi eşidib, əlləri ilə qulaqlarını yumdu.

## TİTR YAZISI

**Kəlbəcər rayonu 1993-cü ilin aprel ayının 3-dən Ermənistan ordusu tərəfindən işğal olunub.**

**1993-cü il mart ayının 23-dən aprel ayının 3-dək 10 sutkadan çox gedən gərgin döyüşlərdə 701 saylı hərbi hissə, Kəlbəcər könüllüləri və helikopterçilər özlərindən 15 qat üstün olan düşmən qüvvələri ilə mühasirə şəraitində vuruşaraq 450 nəfərdən çox döyüşçü itki vermiş və mühasirədə olan 60 min Kəlbəcərlinin təxliyyəsinə nail olmuşdu.Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib.**

**Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş ərazilərdən dərhal çıxarılması tələb olunmuşdur.**

***

2020-ci ilin payızı.

BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edilməsindən 30 ilə yaxın vaxt keçməyinə baxmayaraq Qətnamədə tələb olunduğu kimi - bütün işğalçı qüvvələr Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş ərazilərdən dərhal çıxarılmamış, əksinə, yeni-yeni ərazilər zəbt olunmuşdur.

İşğal olunmuş ərazilərdə beynəlxalq normalara əməl edilməmiş, Azərbaycanın təbii sərvətləri talan, mədəni irs və

abidələri, yaşayış əraziləri dağıdılmışdır.

Azğınlaşmış işğalçı qüvvələr açıq-açığına Azərbaycan Respublikasına meydan oxumaqdan belə çəkinmirdilər. Bir-birinin ardınca Azərbaycan Respublikasının yaşayış məntəqələrini raket atəşinə tutmaqla yeni tərxibatlara cəhd edilirdi.

Azərbaycan xalqının səbr kasasının dolduğunu, işğalçı ordunun həyasızlığını nəzərə alaraq, Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə 2020-ci ilin sentyabr ayının 27-də ərazilərin hərb yolu ilə azad olunmasına başlandı.

İşğalçı erməni ordusu 30 il ərzində işğal olunmuş ərazilərdə hərbi istehkamlar quraraq özlərində "məğlubedilməz" mifi formalaşdırmışdı. Azərbaycan Ordusunun ilk həmlərəindən məlum oldu ki, Vətən uğrunda mübarizə aparan qüvvə qarşısında heç bir işğalçı qüvvə dayanmağa qadir deyi. 44 günlük hərbi əməliyyat zamanı erməni ordusu darmadağın edildi.

***

Dağlıq Qarabağın hər bir bucağının cazibadar gözəlliyi var. İlin fəsillərindən asılı olmayaraq bu gözəllik özünəməxsus formada cəlbedici olur.

Azərbaycanlılar və ermənilərin vaxtıilə birgə yaşadığı kənd. Kənddə yaşayan bütün azərbaycanlılar didərgin salınmış, əmlakları əllərindən alınmış, kiçik kənd məscidi dağıdılmışdır. Qarabağın başqa kəndlərini viranə qoysalar da, ermənilər özlərini bu kəndin əsl sahibi kimi hiss etdiklərindən

abadlaşdırma, müassir tələbata cavab verən yaşayış məntəqəsinə çevirməyə çalışmışdılar.

Hərbi əməliyyatların başlandığı gündən kəndin hər üç girəcəyində mühafizə postları təşkil edilmişdir.

***

Kamo bir neçə dəfə əmisi Vazgenin “ağalıq” etdiyi bu kəndə həvəslə dincəlməyə gəlmişdi. Lakin bu dəfəki gəlişi heç ürəyincə deyildi.

Qarabaq savaşının qızğın çağında əmisinin onu kəndə gəlməsini təkid etməsəydi. Gəlişinin əsas məqsədi qoca, xəstə əmisini müalicə üçün Yeravana aparmaq idi. Yola düşməzdən əvvəl hərbi əməliyyatlar haqqında məlumat toplamışdı. Yerli informasiya vasitələrinin məlumatlarını təhlil etmiş, hərbi əməliyyatların kənddən çox uzaqda olmasına əmin olub, yola düşmüşdü.

Ancaq, qonşu ölkənin ərazisinə daxil olan kimi vəziyyətin heç də informasiya vasitələrinin verdikləri kimi olmadığı nəzərindən qaçmadı. Nəinki mülki şəxslərin, eləcə də hərbicilərin Ermənistana tərəf axını, vəziyyətin gərgin olmasından xəbər verirdi.

Kəndə bir xeyli qalmış atəş səslərini eşidib, narahat olmağa başladı. Maşının sürətini tamam azaldıb geri dönmək barədə fikirləşdi. Gözü maşının saatına sataşdı. Adətən, bu zamanlar xəbərlər verilişi olduğundan radionun dalğasını dəyişdi. Diktorun “məğlubedilməş erməni ordusunun” düşmənə ağır zərbələr endirərək geri oturtduğunu eşidib, yoluna davam etməyi qərara aldı.

***

Kamo ciddi mühafizə olunan kəndin girişindəki posta yaxınlaşan kimi silahlıların işarəsi ilə maşını saxlayıb pəncərəni aşağı endirdi. Ona tərəf gələn mühafizəçinin hərbi geyimdə olmasına baxmayaraq, mülkü şəxs olduğu açıqca hiss olunurdu. "Güman ki, kənd sakinidir"- Kamo fikirindən keçirdi. Mühafizəçi maşına çatar-çatmaz o, mehribancasına salamlaşdı.

-Salam, mən kənd xəstəxanasına getməliyəm.

-Sənədlərini zəhmət olmasa təqdim et. Kənar şəxslərin kəndə girişi qadağandır. – deyə, mühafizəçi əmranə dilləndi.

Mühafizəçi Kamonun sənədlərini alıb diqqətlə nəzərdə keçirdi.

-Xəstəxanaya nə məqsədlə getmək istədiyinizi bilmək olar?

Kamo gəlişinin məqsədini bildirib, xəstəxanaya necə getmək lazım olduğunu soruşdu.

- Heç tərəfə dönməyin, əsas yolla gedin. Yol özü Sizi xəstəxanaya aparacaq.- deyib sənədləri qaytardı.

***

Kamo maşınla xəstəxananın həyətinə daxil olub dayandı. Ətrafda heç kəs görünmürdü. Maşından düşməyə ehtiyat etdi, uzaqlardan eşidilən mərmi gürultusu gözəl təbiətdə vahiməli bir şərait yaratmışdı. Əvvəlcə istədi ki, geri qayıtsın, amma fikrindən daşındı. Hər ehtimala görə maşını döndərib üzü darvazaya tərəf saxladı. Maşının matorunu söndürüb bir daha ətrafa göz gəzdirdi.

- Allah bilir, bu qoca yenə də hansı sərsəm söhbətə görə

məni yanına çağırtdırıb. Deyəsən, qəflət yuxusundadır. Dünya müharibədən danışır, aləm od tutub yanır, bu da məni Qarabağa çağırır. Burada mənim nə itim azıb? Gül kimi imkanı əldən verdim, vaxtında rədd olub Moskvaya getmədim.- Kamo öz-özünə fikirləşib, maşından düşdü.

***

Xəstəxananın qəbul şöbəsində işləyən tibb bacısı həyətə maşın daxil olduğunu hiss edən kimi pəncərəyə yaxınlaşdı. Maşında Ermənistan dövlət nişanını görüb gələnin kim olduğunu müəyyən etmək istədi. Odur ki, Kamo düşənə qədər gözünü maşından çəkmədi. Yaraşıqlı, şövqlə geyinmiş kişinin fikirli halda xəstəxananın qapısına tərəf addımladığını gördü.

-Canı yanmış nə gözəldir, bizim xarabada belələri niyə yoxdur?- fikirləşib, geri dönüb öz yerində oturdu.

Tibb bacısı masa arxasına oturan kimi maskasını çıxardı. Qarşısındakı güzgüdə özünə sığal verməyinə baxmayaraq bir gözü qapıda idi. Kamo içəri daxil olan kimi maskasını taxıb ayağa qalxdı.

- Salam, xoş gəlmisiz. Sizi eşidirəm.- deyib, nazlana-nazlana Kamonu salamladı.

Kamo:

- Salam. Mən Vazgen əmiyə baş çəkmək istərdim. – deyib, masaya yaxınlaşdı.

Tibb bacısı:

- “Mayor” Vazgenə?

Kamo:

- Hə.

Tibb bacısı:

- Siz kimsiniz? Qohumusunuz?- deyə, soruşdu.

Kamo:

- Bəli, bacısı oğluyam. Yerevandan gəlmişəm, özü çağırtdırıb. – deyə, cavab verdi.

Tibb bacısı Kamonu başdan ayağa süzüb foyedəki divana işarə etdi.

- İnciməyəin, onun yanına icazəsiz buraxa bilmərəm. Uzaq yoldan gəlmisiz, əyləşin. Siz bir fincan kofe içənə kimi mən də mühafizəçilərə gəlişiniz barədə məlumat verim.

Kamo foyedəki divanda oturub kiçik masa üzərindəki jurnalı vərəqləməyə başladı. Tibb bacısı onu süzə-süzə telefonun dəstəyini qaldırdı.

- "Mayor" Vazgenin bacısı oğlu buradadır.- deyib, cavab gözləmədən dəstəyi yerinə qoyub kofe hazırlamağa başladı.

O, kofe hazırlaya-hazırlaya Kamonun diqqətini özünə cəlb etmək istədi.

- Kofenizə nə qədər şəkər əlavə edim? – deyə, tibb bacısı soruşdu.

Kamo:

- Əziyyət çəkməyin, özüm əlavə edərəm.- başını yuxarı qaldırmadan cavab verdi.

Kofe hazır olan kimi tibb bacısı xalatının birinci və sonuncu düyməsini açaraq şəstlə Kamoya tərəf addımladı.

Tibb bacısı:

- İçəri girən kimi hiss olundu ki, bura adamı deyilsiz.- deyib, əyilərək fincanı masanın üstünə qoydu.

Kamo onun yarımaçıq baldırını görüb başını dik qaldırdı.

- Yerli adam olmamağımı nədən hiss etdiniz?- deyə, Kamo

maraqla soruşdu.

Tibb bacısı gözlərini süzdürdü:

- Geyiminizdən.- deyə, cavab verdi.

Kamo maraqla öz üst-başını nəzərdən keçirdi.

- Mənim geyimim buradakılardan nə ilə fərqlənir?

Tibb bacısı:

- Bilirsiz…

Tibb bacısı iki nəfər əlisilahlılarının onlara yaxınlaşdığını görüb sözünü yarımçıq kəsdi, Kamonu bir daha başdan-ayağa süzüb iş masasının arxasına keçdi. Siıahlılar Kamoya yaxınlaşıb ədəblə salamlaşırlar.

- Kamo Azaroviç?- deyə, onlardan biri soruşdu.

- Hə, Vazgenin bacısı oğlu Kamoyam.

- Xoş gəlmisiz!- deyib, o biri silahlı əl uzadıb Kamo ilə görüşdü.

- Dayımı necə görə bilərəm?- Deyə, Kamo soruşdü.

Silahlı erməni:

- Əvvəlcə, hərbi paltar geyinməlisiz.

Kamo onun dediyinə təəcüblənib, tərəddüdlü baxışla silahlılara baxdı.

-"Mayor"un-dayınızın istəyi belədir. Sizi hərbi formada görmək arzusundadır. Buyurun, gedək geyim otağına. - deyib, əli ilə dəhlizə işarə etdi.- Buyurun, Sizin üçün bütün tədarüklər görülüb.

Kamo dinməzcə silahlılarla birgə onların işarə etdikləri dəhlizdəki otaqların birinə daxil oldu. O, otağa daxil olmamışdan əvvəl dönüb geri baxdı. Tibb bacısı silahlılarla Kamonun danışıqlrına diqqətlə qulaq assa da, onların söhbətinə

müdaxilə etmədi, sadəcə olaraq həsrətlə Kamonun arxasınca baxdı. Onlar otağa daxil olandan sonra dərindən nəfəs alıb, "ilk baxışdan məhəbbət belə olurmuş" deyə fikirləşib oturdu.

***

Vaxtilə bu ərazilərdə "at oynadan" Vazgen qocalıb əldən düşmüş, xəstəxana palatalarının birində müalicə olunurdu. Müassir dizaynlı palatada onun üçün hər cür şərait yaradılmış, hərbi əməliyyatlar başlayandan sonra isə güclü mühafizə olunurdu. Güclü mühafizənin əsas səbəbi isə etdiyi cinayətlərə görə azərbaycanlı kəşfiyyatçılar tərəfindən oğurlanmaq qorxusu idi.

Xəstə, 75 yaşlı Vazgen həyacanlı halda çarpayıdan başını aşağı əyib dayanmandan öskürürdü. Hərbi geyimli orta yaşlı mühafizəçi zabit ona su icirtməyə çalışırdi. Vozgen əli ilə suyu kənara itələdi.

Zabit:

- Vazgen can, sənə həyacanlanmaq olmaz.- deyib, suyu ona içirtdi.

Vazgen suyu içib, nəfəsini dərdikdən sonra:

-Təcili Kəlbəcərə getmək lazımdır.-zorla nəfəs alaraq dilləndi.

Zabit:

- Nəyə görə Kəlbəcərə belə tələsik getmək lazımdır? Kamonu buna görə  cağırtdırıbsan?- deyə, soruşdu.

- Yox, Kamonun başqa işi olacaq.-Vazgen dayanmadan öskürərək dilləndi.

Zabit:

- Anladım, o, səni Yeravana aparmaq üçün gəlib.

Vazgen:

- Mən heç yana getməyi planlaşdırmıram. Kamo Yeravana yox, cəbhəyə getməlidir. Əsl Azatamartik olmalıdır *(azərbaycanlı, türk öldürən ermənıyə verilən ad)*. Fikirləşib hansı bölgəyə gedəcəyini dəqiqləşdirəcəm. Indi əsas məsələ Kəlbəcərdir. Orada böyük bir səhvimiz olub, onu düzəltmək lazımdır

Zabit maraqla soruşdu:

- Nə səhvdir elə, Vazgen can?

Vazgen:

-Kəlbəcərdən türkləri qovanda bütün əmlaklarını, o cümlədən də maşınlarını əllərindən aldıq ki, gedib Bakıya çatanadək yolda qırılsınlar.

-Düz eləmisiz. Bunun nəyi səhvdir ki? – deyib zabit təəcüblədi.

Vazgen dedi:

- Səhvi onda eləməmişik ey.

Zabit:

- Bəs nədə səhv etmisiz?- soruşdu.

Vazgen bir anlığa xəyala daldı:

- Onların əllərindən aldığımız maşınların dövlət nişanlarını bir yerə yığıb divara həkk eləmişik. Nəbadə, türklər Kəlbəcəri geri alsınlar. Alsalar, həmin divarın şəklini çəkib bizi bütün dünyada biyabır edəcəklər. – deyib başını yastığa əydi.

Zabit ona təskinlik verməyə çalışdı:

- Məncə, bu işdə biyabır olacaq bir şey yoxdur.

Vazgen:

- Siz Qarabağlıları öyrədə bilmədik də. Ay qanmaz,

adamdan soruşmazlar  ki, Kəlbəcərdə azərbaycanlılar yaşamayıblarsa, onda bu maşın nömrələri hardandır?- deyib gözünü tavana zillədi.

-"Vaxtında o qədər qanmazlıq ediblər ki, indi də bizi qanmaz hesab edirlər". – deyə, Zabit ürəyində gileyləndi.

Vazgen zorla nəfəs alaraq sözünə davam etdi:

- Erməni xalqı mənim kimi igidin qədrini bilmədi.

- Elə demə, Vazgen can. Bu böyüklükdə Qarabağda sənin bir sözünü iki eyləyən olmayıb.- deyib, zabit heydən düşmüş Vazgenə ürək-dirək verməyə çalışdı.- Mən biləni, heç kəs sənə qarşı vəfasızlıq etməyib.

Vazgen tərs-tərs zabitin üzünə baxıb dedi:

-Yeravanda Hayqanuş, burada da siz  mənə vəfasız çıxdınız.

Zabit:

-Yeravanda Hayqanuşun vəfasızlığını deyə bilmərəm, amma, bizi nəyə görə  vəfasız hesab edirsən?

Vozgen ağır-ağır nəfəs aldı:

- Minlərlə azərbaycanlını məhv edib sizə vətən düzəltdim. Qədirbilənsinizsə, hanı mənim Şuşada heykəlim?... Kəlbəcərə yerləşdirdiyim ermənilərin burunlarından gəlsin, heykəl cəhənnəm, adıma küçə də qıymadılar. Kamo da mənə vəfasız çıxsa, yəqin ki, ürəyim partlayacaq.- deyib, gözlərini yumdu.

Zabit cəld əli ilə Vazgenin nəbzini yoxladı.

- Həyəcanlanma, Vazgen can, bu davadan salamat çıxsaq kəndimizin adını dəyişdirib Vazgenkert qoyduracam.-deyib, zabit masanın üstündəki həblərdən birini ona vermək istədi.- Sakitləşdiricidir, birini iç ki, özünə gələsən.

Vazgen:

- Lazım deyil. Bu Kamo harda qaldı?- gözünü açmadan dilləndi

***

Bir neçə dəqiqədən sonra silahlılar və “mayor” hərbi rütbə formasını geyinmiş Kamo otaqdan çıxıb Vazgen olan palataya yollandılar. Tibb bacısı Kamonu zabit formasında görüb ürəyi tir-tir əsdi. Hər üçü palatanın qapısı ağzında dayandı. Silahlılardan biri qapını ehmalca döydü.

Qapı tıqqıltısının səsini eşidib Vazgen gözünü açdı. Zabitin onun üzünə baxdığını görüb gözü ilə qapıya işarə etdi.

Zabit qapını açanda ilk növbədə mayor hərbi geyimli Kamonu gördü. Geri dönüb Vazgenə dedi:

- Bu da sənin bacın oğlu Kamo! Əsil igid Azatamartikdir.

Vazgenin işarəsindən sonra Kamonu içəri dəvət etdi:

-Buyur, keç içəri. Vazgen əmin gəlişini səbirsizliklə gösləyir.

Kamo içəri daxil olub Vazgenlə mehribancasına görüşüb, hal-əhval tutdu.

***

Vazgen:

- Kamo can, heç təsəvvür etməzdim ki, hərbi paltar sənə bu qədər çox yaraşarmış. Hələlik mayor paqonu bəsindir. Ölməyib salamat qalsam mayor ulduzunu general ulduzuna çevirəcəm. İnanıram ki, ermənilər sənə mahnı qoşub, heykəl qoyacaqlar.

Kamo çiynindəki poqona işarə etdi:

- Çox sağ olun. Amma, mənə çox qəribə gəldi.

Vazgen soruşdu:

- Nədir sənə qəbibə gələn?

Kamo:

- Axı, mən bir gün də olsun hərbi məktəbə də getməmişəm. Soruşmazlar ki, ciynimdəki rütbə hardan peyda oldu?

Kamonun sözündən Vazgen tutuldu. Başı ilə zabitə platadan çıxmağı işarə etdi. Zabit heç nə demədən palatanın qapısına tərəf getdi. Qapını açıb ayaq saxladı, sözlü adam kimi dönüb Vazgenə baxdı. Vazgen zabitin nə demək istədiyini başa düşdü.

Vazgen:

- Get, narahat olma. Məni öz bacıoğlumdan da qoruyası deyilsən ki.

Zabit dinməzcə qapını örtüb, çölə çıxdı. Palatada bir müddət sakitik yaranır. Vazgen nə deyəcəyini düşünür, Kamo da söhbətin necə bitəcəyini başıaşağı halda gözləyib susurdu.

Nəhayət Vozgen dilləndi:

- Arsaxda mənim sözümün qabağına söz deyən olmaz. İstəsəydim birbaşa general rütbəsi verdirərdim. Amma, hələlik mayor da bəsindir. Bir necə döyüşdə fərqlənərsən, polkovnik olarsan. Sonrası asandır.

Kamo soruşdu:

-Mən kimlərə qarşı döyüşməliyəm ki?

Vazgen gülümsəməyə çalışdı:

- Kamo can, ata-ananı öldürənləri nə tez unutdun? Valideynlərini kim öldürüb, səni yetim kim qoyub?

Kamo udqudu:

- Sənin dediyindən bilirəm ki, azərbaycanlılar öldürüblər.

Vazgen:

-Afərin, bunu heç vaxt yadından çıxarma. Ermənininin düşməni çoxdur. Ən böyüyü isə türklər, azərilərdi. Qonşumuz gürcülər, ruslar da düşmənlərdən geri qalmır, bizi görməyə gözləri yoxdur.

Kamo etiraz etməyə çalışdı:

- Gürcüləri deyə bilmərəm, amma, məncə ruslar bizim dostumuzdur.

Vazgen xırıldaya-xırıldaya dedi:

- Sən də söz danışdın də. Rusdan dost olar? Bütün Ermənistanı vermişik onların ixtiyarına. Krasnodar nə böyük yerdir ki, oradakı ermənilərə heç olmazsa, hələlik muxtariyyat da vermir. Gürcülərin xaçpərəst olmağına baxma, Türklər demiş, iplərinin üstünə odun yığmaq olmaz. Bizim üçün müsəlman İranı onlardan yaxşıdır.

Kamo ürəyində fikirləşir:

-"Gənc vaxtlarımda bu "dərs"i çox keçmişəm. Qoca, xəstə vaxtı da sərsəm-sərsəm danışmağından əl çəkmir.

Kamo:

- Siz deyənlərlə tam razıyam, amma, indi bu söhbətin yeri deyil.

Vazgen:

- Səhv edirsən, indi əsl vaxtıdır, azərbaycanlıların bizə hücum etməsi onlara baha başa gələcək. Onları Bakıya kimi qovmaq vaxtıdır. Belə bir məqam bir də ələ düşməyəcək. Dolabın üst siyirtməsini aç.

Kamo asta-asta siyirtməni açır, tapancanı görüb bağlamaq istədi.

Vazgen dedi:

- Bağlama, götür, gərəyin olar.

Kamo çiyinini çəkdi:

-Nəyimə gərək olacaq?- deyə, soruşdu.

Vazgen:

- Qarşına çıxan azərbaycanlıları hərdən bu tapanca ilə vurarsan, mənim əvəzimdən.

Kamo:

-İnciməyin, mənim heç kəslə vuruşmaq fikirim yoxdur.

Vazgen istezalı şəkildə soruşdu:

- Düşmənlə də?

Kamo:

- Düşmən mənim torpağıma hücum etsə, onunla vuruşaram.

Vazgen:

- Arsax sənin vətənindir.

Kamo:

- Arsax mənim vətənim olsa da, azərbaycan torpağıdır. İndi internet dövrüdür, heç kəsə yalan sırımaq mümkün deyil. Bütün dünyada qəbul olunmuş dövlət sərhədləri var. Biz onlarla vuruşmalı deyil, dil tapıb yaşamalıyıq.

Vazgen hirsləndi:

- Qorxursan, ölümdən?

Kamo:

- Ölümdən niyə qorxmalıyam ki? Kimin qisməti nədir, o da olacaq. Ancaq mən göz-görəsi, axmaq bir oyuna girib məhv olmaq istəmirəm.-deyib ayağa  qalxdı.

Vazgenin dili topuq vurdu:

- Əgər azərbaycanlılarla vuruşmağa getməsən...

Kamo qəti şəkildə dilləndi:

- Dedim ki, heç kəslə vuruşmağa gedən deyiləm.

Vazgen əlini qaldırıb nə isə demək istədi, amma, dili söz tutmayıb halı pisləşdi. Kamo onun əlini tutub astaca sinəsi üstə qoydu.

Kamo:

-Səni indi özgə torpağı deyil, öz canın maraqlandırmalıdır. Təcili Yeravana getməliyik. -deyib ayağa qalxdı.- Yola hazırlaşmaq lazımdır.-deyib qapıya tərəf addımladı.

Vazgen gözünü açıb Kamonun qapıya tərəf getdiyini gördü. Son nəfəsini toplayıb xırıltı ilə dedi:

- Qur...ban...lıq Türk kü...cü...yü... Səni öz əl... lə.. rim... lə öld.

Kamo geri döndü, Vazgenin gözlərini bərəlmiş görüb:

- Sakitləşmək lazımdır. Həkimlərlə məsləhətləşib, qayıdıram.- deyib, iti addımlarla qapıya tərəf addımladı.

Qapıya çatar-çatmaz arxadan atəş səsi eşidib Kamo ayaq saxladı. Vazgenin onu arxadan vurduğunu düşündü, donub qaldı. Bir anlığa fikirləşdi:

- "Niyə məni öldürmək istəyir?"

Zabit və mühafizəçilər atəş səsini eşidib dərhal palataya girdilər. Kamonu qapının ağzında silahsız görüb, Vazgenə tərəf qaçdılar. Zabit atəşin Vazgenin əlindəki tapancadan açıldığına əmin olduqdan sonra qapı ağzında süst dayanmış Kamoya yaxınlaşdı.

Zabit:

- Yəqin ki, ağrılara tab gətirməyib, özünü öldürmək istəyib. Qəfil ölüm onun bu arzusunu da gözündə qoyub, atəş

açmamış keçinib.- deyib Kamonu qucaqladı.

Kamo gözaltı Voagenin meyitinə, bir də atəşdən cilik-cilik olmuş pəncərəyə baxıb fikirləşdi.

- Ola bilsin ki, ölüm qabağı həyacanlanıb, gözünə azərbaycanlı zabiti kimi görünmüşəm. Ona görə də "Türk kucuyü... " dedi. Qəribədir, "türk kucuyü" nə deməkdir?

***

2020-ci ilin noyabr ayı.

İlhamın ad günüdür. Səhər tezdən başlayaraq dostları zəng edib onu təbrik etmişdilər. Son illər ad gününü dostları ilə birgə yaxınlıqdakı kənddə, süni yaradılmış gölün yanında yerləşən Xudunun yeməkxanasında qeyd edərdi. Qurumuş ağac budaqlarından açıq havada yemək üçün bir neçə örtülü yer düzəldilmişdir. Daşdan tikilmiş bir kabinə olmasına baxmayaraq, havanın neçə olmasından asılı olmayaraq dostlar həmin yerdə şənlənərdilər.

Yeməkxana qəribə görkəmindən əlavə ətrafı seyr etmək üçün də mənzərəli məkanda, dağ yamacında yerləşirdi. Xudunun müştəri sarıdan heç bir problemi olmazdı. İlin bütün fəslində müştəriləri əvvəlcədən verilən sifarişlə qəbul edərdi. Yaxınlarının təkidinə baxmayaraq yeməkxananın fəaliyyətini genişləndirməmiş, məhdud müştəri sayı ilə qane olmuşdur.

Dünyada tüğyan edən koronavirusla əlaqədar neçə ay idi ki, yeməkxana fəaliyyət göstərmirdi. Ölkədə hərbi vəziyyətə ciddi əməl etməklə fəaliyyət göstərdiyindən Xudu İlhamla telefon danışığında öz şərtini irəli sürüb, razılaşmışdılar.

Dostları Orxan və Səlimlə ala-torandan (şərqarışan zamanı) yeməkxanaya gəlmişdilər. Onlar bu dəfə daşla hörülmüş kabinetdə oturmuşdular.

***

Xudu kabab bişirilən açıq havadakı manqal üzərində son 2 şiş kababın bişməsinə nəzarət edirdi.

Kabinetin pəncərəsindən gələn:

- Xudu, nə oldu, sənin ciyər kababın, bişmədi?- səsi eşidib əl saxladı.

Xudu:

- Səbr edin, indicə hazır olacaq.

Orxan:

- Ədə, ciyərdi də. Qurumağa qoyma, bir balaca isti dəydi, bəsidir. Ciyər kababını qanlı-qanlı yemək lazımdır. Gətir gəl.

Xudu şişləri götürüb getmək istədi. Bir-iki addım atıb dayandı, bir anlığa fikirləşib geri döndü. Qabdakı suyu götürüb manqalın üstünə çiləməyə başladı.

***

Kabinetdəki dostlar Xudunun gəlişini gözləyə-gözləyə dünyada baş verənləri müzakirə edirdilər.

Orxan:

- 2020-ci il düşərli olmadı. Bir tərəfdən də müharibə. Mən bilirdim ki, 20-ci il çox bəd il olacaq, amma, bir tərəfdən də şükür, cəbhədə vəziyyət yaxşıdır.

Səlim:

- Yaxşı də, gopa basma, hardan bilirdin ki, bəd il olacaq?

İlham:

- Orxanın bilmədiyi şeyə qurd düşər, gecəyarıyadək internetdə eşələnir.

Orxan incik halda dilləndi:

- Toyuq-zad deyiləm ki! Eşələnir, yox, internetə baş vurur.

Çox adamlar yazırdılar ki, qoşa tarixin düşər-düşməzi ola bilər.

Səlim:

- Uşaqlar, Orxan düz deyir, internetdə belə fikirlər mənim də rastıma çıxıb. *(cibindəki maskanı çıxarıb başı üzərinə qaldırır. Maskaya diqqətlə baxır).* Deyirəm ey, keçən il kim isə desəydi ki, vaxt gələcək, bunu ağzımıza taxmasaq heç bir yerə buraxmayacaqlar, adamı ələ salıb dəli hesab edərdilər. (başı ilə maskaya işarə edir). İndi bunsuz hansısa idarəyə, mağazaya gir görüm, necə girirsən.

Orxan:

- Məni qınamayın, bu məsələdə böyük dövlətlərin nə isə bir fırıldağı var. İnternetə inansaq, koronavirus haqqında məlumat neçə il əvvəl yayılıb. Sual yaranır, niyə həmin illərdə virusun qorxulu olması barədə danışmayıblar? Belə izah etmək olar ki, ya virus bizə sırımaq istədikləri qədər də qorxulu deyil, ya da Allah bilir, nə fırıldaqdı başımıza açırlar.

İlham:

- Orxan, hansısa fırıldaqdan söhbət ola bilməz, xəstəlik həqiqətən də qorxuludur, insan həyatına təhlükədir. Sən hansısa firildağın olduğunu düşünürsənsə, səhv edirsən.

Orxan:

- Səhv edib-etmədiyimi ABŞ-da seçki qurtarandan sonra bilərsən.

Səlim:

- Şəxsən mən, 2020-ci ilin gəlişi ilə əlaqədar kimi ki Yeni il münasibəti ilə təbrik etmişəm, hamısına təzədən mesaj yazıb üzr istəmişəm.

Orxan:

- Uşaqlar, mən belə düşünürəm ki, 2020-ci ili lazımı qaydada qarşılamamışıq. Ona görədə 2020 inciyib, bizlərə sərt üzünü göstərib.

Səlim:

- Arzu edək ki, “Pilot İlham” 2021-də “Formula-1”-də iştirak etsin. Sizi inandırıram ki, İlhama yarışlarda iştirak etməyə icazə versələr, buradan Bakıya, geri qayıdanda da Bakıdan kəndə qədər iki təkərin üstündə gedib-gələ bilər. Yeri gəlmişkən, ezamiyyətin neçə günlükdür?

İlham:

- Dəqiq bilmirəm. Akif müəllim neçə günə işini yekunlaşdırsa, o qədərlik.

Orxan:

- İlham, axı bizi başa salmadın, necə oldu ki, döyüş vaxtı səfərbərliyə çağırmadılar, indi səni Qarabağa ezam edirlər?

İlham:

- Uşaqlar, cəbhəyə getmək üçün ikinci dəfə komissarlığa gedəndə orada şuluqluq salmışdım.

Orxan:

- Kiminlə isə sözünüz çəp gəlmişdi?

İlham:

- Yox. Növbətçi məndən əvvəlki yaşlı kişini siyahıya yazdı, mənə “ehtiyac yoxdur” deyib, yazmaq istəmədi. Sonra bildim ki, qoca kişi yazan imış, yəni, yazıçı imiş.

Səlim:

-Əşşi, indi o qədər yazan var ki. Kitab oxuyan yoxdu.

İlham:

-Nə başınızı ağrıdım, səsimi qaldırdım, narazılıq etdim.

Sən demə, komissar dəhlizdə imiş. Mənimlə söhbət etdi, nə sənətin sahibi olduğumu soruşdu. Dedim, mühasibəm. Dedi ki, hərbidə kəşfiyyatçı və ya artilerist olmuş olsaydım adımı yazardılar.

Səlim:

-Demədin ki, əla maşın sürürsən.

İlham:

- Onu da dedim, soruşdu ki, traktor sürə bilirəm? Dedim, yox. Dedi ki, sağlıq olsun, Qarabağda yol çəkilib hazır olanda, məni də apararlar. Amma, adımı yazdırdı. Dünən yanına çağırtdırmışdı. Qoca kişi də otaqda idi. Nə isə, belə razılaşdıq ki, sübh tezdən Qarabağa yola düşəcəyik. Ad günüm olmasına baxmayaraq, bu gün yolasalma mərasimidir. Sağlıq olsun, ad günümü tam Qələbəmizdən sonra qeyd edərik.

***

Xudu manqalı sondürüb, kababı stola vermək üçün hazırladıqdan sonra kabinetə yollandı. O, içəri daxil olan kimi Orxan ayağa qalxıb, kababı iylədi.

Orxan:

- Bəh, bəh! Dedim axı, Xudu bu işin sənətkarıdır. İlham, "Qrand Palaz"dakı fransız aşbazı var idi ey, Giril Roquet.

İlham:

- Cyril Rouduet Provostu deyirsən?

Orxan:

- Hə, hə. onu deyirəm.

İlham:

- Sarayın adı, "Qrand Palaz" yox, "Grand Palais"dır.

Orxan:

- Yaxşı, sən deyən olsun. Bax, sənin o Cyrilin Xudunun yerini bilsəydi, bilirsən nə olardı?

Səlim maraqla soruşdu:

- Nə olardı ki?

Orxan:

- Gələn il bu vaxtı İlhamın ad gününü "Qrand Palaz"da qeyd edərdik!

Səlim:

- İlham dedi axı, bu gün ad gününü qeyd eləmək üçün gəlməmişik.

Orxan:

- Müsyo Xudu, bəlkə bu münasibətlə bizə kərtof kababı hazırlayasan.- deyib ayağa qalxdı və əlini Xudunun çiyninə qoydu,

Xudu:

- Bağışlayın, mümkün deyil.

Orxan təəcüblə soruşdu:

- Niyə?

Xudu saatına baxıb cavab verdi:

- Ocağı söndürmüşəm.

Səlimlə Orxan təəcüblə bir-birinə baxdılar.

İlham:

- Uşaqlar, mən yola hazırlaşmalıyam. Xudu, neçə manat borcumuz var?

Xudu:

- Hesablayıb deyərəm.- deyib kabinetdən çıxdı.

***

İlhamın işğaldan azad olunmuş əraziyə səfəri anası

Səidənin ürəyincə olmasa da, oğlunun istəyinin əksinə heç nə demədi. Gecəyarıya kimi mətbəxdə işini görsə də, işıqlaşmamış yuxudan oyandı. İlhamın yol çantasını və səhər yeməyi hazırladı. Dan yeri sökülməyə başlayanda oğlunu oyatdı.

Səidə səhər yeməyini masanın üstünə düzdü. Oğlu masa arxasına oturan kimi çayı süzüb yataq otağına getdi. Bir azdan geri dönüb əlindəki pulu masanın üstünə qoydu.

- Bu nədir?- İlham soruşdu, sonra gülümsəyərək əlavə etdi- Ay ana, Sədərək bazarına getmirəm ey, Qarabağa, işğaldan azad olunmuş əraziyə gedirirk. Pul orada nəyimizə gərəkdir?

- Atan verdi, qoy cibinə, çöllükdür, lazım olmasa qaytararsan.

İlham səhər yeməyini yeyib, pulu cibinə qoyaraq ayağa qalxdı. Yol çantasını götürüb anası ilə sağollaşıb həyətə çıxıb maşının motorunu işə saldı. Səidə də oğlunun arxasınca həyətə çıxdı.

-İlham, imkan olanda telefonlar işləsə arabir zəng elə.- deyə nigarançılıqla dilləndi.

-Ay ana, nədən nigaransan, biz cəbhə xəttinə getmirik ki. Işğaldan təzə azad olunmuş ərazilərdir, inanmıram telefonlar işləsin. Bir də ki, axşama qayıdıb gələcəyik də. – deyib yola düşdü.

Səidə əlindəki dolçadakı suyu onun arxasınca atıb maşın gözdən itənəcən darvazanın ağzında dayandı.

***

Akif İlhama evlərinin yerləşdiyi yeri bir daha başa salıb telefonu qapadı.

-Hava hələ tam işıqlaşmayıb, küçəyə çıxım ki, İlham

evimizi keçib getməsin.- deyib paltosunu çiyninə salıb çölə çıxdı.

Onların küçələri şəhər bazarının yaxınlığınada yerləşirdi. Ona görə də, bu küçədə işıqlaşmamış canlanma başlayardı. Amma komendant saatı tətbiq olunduğundan kücədə tam sakitlik hökm sürürdü.

Bir azdan tindən maşının dönüb ona tərəf gəldiyini gördü. İlhamın maşını olduğu fikirləşib əlini yellədi. İlham Akifi tanıyıb bir-iki dəfə maşının gur işığını yandırıb sondürdü. İlhamın maşını olduğuna əmin olub həyətə qayıtdı. Həyat yoladaşı onun həyətə girdiyini görüb hər iki yol çantasını bayıra çıxartdı. Akif tələsik halda yol çantalarını götürüb həyətdən çıxmaq istəyirdi ki, nəvəsi Mədinə onu səslədi.

-Baba, məni öpməmiş gedirsən, darıxacam sənin üçün.- deyib babasının yanına qaçdı.

-Ay qız, sənə soyuq olar.- deyib nənəsi onun yolunu kəsmək istədi.

Akif geri dönüb nəvəsini öpdü.

- Ay mənim ağıllı qızım, baba uzağa getmir ki, axşama evə qayıdacaq.- deyib həyətdən çıxdı.

İlham Akifin bərabərliyində maşını saxladı. Cəld maşından enib Akiflə salamlaşdı. Maşının yük yerini açıb iri yol çantasını ora yerləşdirdi.

-Ya Allah, sür gedək. – Akif maşına oturan kimi dilləndi.

***

İşğaldan azad olunmuş ərazidə yol kənarında yerləşən hərbi qərargaha çathaçatda İlham maşının sürətini tamam azaltdı.

-Sən maşında gözlə. Lazım olsan, zəng edərəm gələrsən.- deyib Akif maşından düşüb qərargaha yollandı.

Bir müddətdən sonra əsgərlərdən biri maşına yaxınlaşıb İlhamı qərargaha dəvət etdi.

Qərargah rəisi Akiflə İlhama buraxılış vərəqəsi təqdim edərək işğaldan azad olunmuş ərazidə təhlükəsizlik qaydaları haqqında onları təlimatlandırdı.

Akiflə İlham maşına minib işğaldan azad olunmuş ərazinin bir hissəsinə yola düşdülər.

***

Hər ikisi maraqla işğaldan azad olunmuş əraziyə göz gəzdirirdi. İlhamın diqqətlə  tez-tez, gah sağa, gah da sola baxması Akifin nəzərindən qaçmadı.

-İlham, bala, fikrini yola cəmlə. Bilirən ki, sənin üçün maraqlıdır, amma fikrin yolda olsun. İstədiyin vaxt maşını saxlayıb doyunca ətrafa baxa bilərsən.-deyə Akif dilləndi.

-Akif müəllim, başqa insanlardan fərqli olaraq, əsl sürücünün dörd gözü olur. İkisi yola, ikisi də ətrafa... -güzgüdən arxaya baxıb Akifin eynəkli olduğunu görüb sözünün arxasını gətirmədi.-Narahat olmayın, bütün diqqətim yoldadır. -dedi.

Bir xeyli getmiş qarşıdakı təpədə əsgərlər göründü.

İlham:

-Qarşıda post var. Akif müəllim, sənədlərimiz qaydasındadır?- deyib, güzgüdən Akifə baxdı.

Akif:

- Narahat olma, əlimizdə daşdan keçən sənədimiz var.- zarafatyana deyib, sözünə davam etdi.- Deməli, hər adam buradan o tərəfə keçə bilməz.

İlham soruşdu:

-Yerli adamlar da?

Akif gülümsəyib cavab verdi:

- Mina yerli adam zad tanımır ki. Üstünə ayaq basdın, əlvida, bu dünya.

Posta çatanda İlham əsgərlərin işarəsi ilə maşını dayandırdı. Silahlı əsgər maşına yaxınlaşan kimi maşının şüşəsini aşağı endirıb ədəblə salamlaşdı.

Əsgər də öz növbəsində mülayimcəsinə salamlaşıb sənədlərini təqdim etməyi xahiş etdi.

İlham əvvəlcə, özünün, sonra da Akifin sənədlərini əsgərə təqdim etdi. Əsgər hər ikisinin səxsiyyət vəsiqəsinə baxıb maşının içinə boylandı.

Sərnişinin Akif olduğuna əmin olduqdan sonra:

- Zəhmət olmasa yük yerini açın.-dedi.

İlham cəld maşından düşüb yük yerini açdı. Əsgərin yük yerini diqqətlə nəzərdən keçirdiyini görüb gənc leytenant da maşına yaxınlaşdı.

Əsgər şühbəli yük hiss etməyib:

- Hər şey qaydasındadır, bağlaya bilərsiz.-deyib sənədləri leytenanta verdi.

İlham yük yerini bağlayıb, maşına əyləşdi. Gənc leytenant gülümsəyərək sənədlərini İlhama qaytardı.

Leytenant:

- Sizə yaxşı yol!  Amma, ehtiyatlı olun.

İlhamla Akif təəccüblə bir-birinin üzünə baxdılar. Leytenant onların narahatçılıqlarını hiss edib gülümsədi.

- Narahat olmayın, dığaları elə qovmuşuq ki, bir də murdar

ayaqları buralara dəyə bilməz. Üzüaşağı enirsiniz, yoldan ehtiyatlı olun.

Maşın yerindən tərpənib bir az getmişdir ki, Akif geri dönüb, əsgərlər gözdən itənə qədər arxaya baxdı.

Akif:

- İlham, amma yekə bir səhvə yol verdik. – deyib, təəssüfləndi.

İlham gözgüdən arxaya baxıb soruşdu:

- Akif müəllim, nə səhv idi elədik?

Akif:

- Arvad yoluma kotlet və xırım-xırda yeməklərdən əlavə iki dənə də soyutma toyuq bişirib. Gərək toyuqları əsgərlərə verərdik. Bu soyuqda dağın başında keşik çəkirlər. – dedi.

İlham gülümsəyərək dedi:

- Versəydik də qəbul etməzdilər.

Akif:

- Niyə?-deyə soruşdu.

İlham:

-Birincisi təhlükəzizlik baxımından, ikincisi də bizim iki toyuğumuza möhtac deyillər ki, maşallah, dövlətimiz nə lazımdırsa öz əsgərini təmin etmək iqtidarındadır.

Akif könülsüz dilləndi:

-Dediklərini mən də bilirəm, hətta isti yeməklərini də əksik eləmirlər.

İlham zarafatyana dedi:

- Onu bilirsinizsə, onda niyə toyuqara görə təəssüflənirsiz? Hər halda, bura kənd yeridir, şəhərdən gələn toyuğu kimdir yeyən. Şəxsən, mən özüm də, toyuq ətini xoşlamıram. Allah

bilir, fermada nə verib şişirdirlər. Kənd toyuğu olsaydı, başqa məsələ, mən özüm də məmuniyyətlə yeyərdim.

Akif:

- Kənd çolpasıdır, bacım göndərib. Sənin qismətin imiş. Acanda xəbər edərsən.- deyib dönüb bir də geriyə baxdı.- Yeməklərini anaları bişirmir ki, özləri bişirir. Allah bilir, ev xörəyini axırıncı dəfə nə vaxt yeyiblər.

***

İlham sükan arxasında bütün diqqətini yola cəmləsə də, arabir gözucu güzgüdən maraqla ətrafı seyr edən Akifə də baxır, onun mimikasının necə dəyişməsini izləyirdi.

Növbəti döngəni dönəndə Akifin qulağına bir anlığa,

həzin:

“Anadır arzuları hər zaman Qarabağ!

Danışan dil-dodağı tar-kaman Qarabağ!”

müsiqi səsi gəldi.

O, gözünü ətrafdan çəkmədən papağını başından götürüb oturacağın üstünə qoydu. Mahnı səsi kəsilən kimi qulağını eşələdi. Heç nə eşitməyib gözünü maşının radioqəbuledicisinə zillədi.

- Nə xoş təsadüf! İlham, radionun səsini qaldır. Bundan gözəl nə ola bilər. Qarabağı seyr edəsən, bu tərəfdən də radioda “Qarabağ şikəstəsi” səslənsin. Romantikadır, əsil romantika!!!- Akif dilləndi:

Akifin sözü ağzında qaldı. Maşın qəfil yolun kənarına tərəf gedib dayandı. O, maşının qəfildən dayanmasından narahat olub həyacanlandı.

- İlham, bala, nə isə olub?- deyə, Akif soruşdu.

İlham heç nə olmamış kimi cavab verdi:

- Akif müəllim, narahat olmayın, hər şey qaydasındadır.- deyib, radionun səsini yüksəltdi.

Radioda səs:

-...“ABŞ prezidenti Doland Tramp respublikaçılar partiyasının”...

İlham güzgüdən arxaya baxaraq ciddi görkəm alıb soruşdu:

- Xəbərlərə qulaq asmaq istəyirdiz?

Akif pərt olub, çiyinlərini çəkdi.

Akif:

- Yox ey. Mənə elə gəldi ki, radioda “Qarabağ şikəstəsi”ni oxuyurlar.- qulaqlarını ovxalayaraq - Yəqin, qulağım məni aldadıb, hamısı qocalıqdandı. – dedi.

İlham:

- Məşədi İbad demişkən, qoca odur ki, dişləri tökülsün, saçı..- “Saçları ağarsın” demək istəyərkən geriyə döndü. Akifin ağ saçlarını görüb susdu.

İlham motoru söndürüb, açarı özü ilə götürərək maşından düşdü. Maşının qapısı açılan kimi soyuq dağ havası icəri doldu. Akif özündən asılı olmayaraq əl atıb papağını başına qoydu və İlhamın hərəkətlərini izləməyə başladı. İlham tələsmədən, ətrafa göz gəzdirərək yolun kənarına yaxınlaşdı. Onun haraya isə diqqətlə baxdığını görub Akif yenidən narahat olmağa başladı.

Akif öz-özünə dedi:

-Leytenant dedi axı, dığalar çoxdan buralardan rədd olub gediblər. Yəqin maşında nə isə problem var. Xarab olsa, bu soyuqda çölün düzəməsində qalacağıq. Qəribədir, maşının

açarını niyə özü ilə götürdü?

O, yan və arxa pəncərədən ətrafı seyr etdi. Barıt iyi verən ətrafda insanı vahiməyə sala biləcək sakitlik idi.

Akif ürəyində fikirləşdi:

- Güllə səsləri bu yerlərdən nəinki heyvanları, hətta quşları da didərgin salıb. Belə bir sakitlik hər an gözlənilməz təhlükəyə də çevrilə bilər.. Sanki, bir neçə gün əvvəl top-tüfəngin səsindən fəryad edən torpaq deyil.

Üzücü sakitlik yavaş-yavaş Akifi narahat etməyə başlayır. Hər ehtimala qarşı əlini hərbi komissarın təqdim etdiyi tapancanın üstünə qoydu. Yol kənarında dayanmış İlham hələ də diqqətlə haraya isə baxırdı.

Akif dözməyib İlhamı səslədi:

- İlham, oğul, ehtiyatlı ol, yoldan çox da kənəra çıxma, minaya düşərsən.

İlhamdan səs çıxmadı. Amma, bir az keçmiş o, geriyə dönmədən sol əlini qaldırıb Akifə yanına gəlməyi işarə etdi. Akif İlhamın işarəsindən sonra ehtiyatla qapını açıb astaca maşından düşdü. Ətrafa bir daha nəzər salıb heç bir təhlikənin olmadığına əmin oldu. İlhama tərəf addımlayarkən yolun tən ortasına çatanda Şəhid Xudayar Yusifzadənin həzin müsiqi səsini eşidib dayandı. Gözü önündə Xudayarın mahnı oxuduğu səhnə canlandı.

***“Keçdi xəyalımdan öz gözəl yurdum.***
***Dumanlar başında dastana döndü.***
***Deyirlər bülbülə çəmən yaxşıdır.***
***İnsan üçün laləzar Vətən yaxşıdır.***
***Sair, sorma nədən Vətən yaxşıdır?”***

Mahnı sona çatan kimi:

**-"Şəhid Xudayar Yusfzadənin səsidir. Allah rəhmət eləsin!"-** deyib, şəstlə yolun kənarına yaxınlaşdı.

Akifin yaxınlaşdığını hiss edən kimi İlham əli ilə aşağıdakı əsgərlərə işarə etdi. Akif onun işarə etdiyi səmtə baxdı. Məsafə çox uzaq idi. Odur ki, o, əsgərləri görsə də, onların nə işlə məşğul olduqlarını anlaya bilmədi.

Akif:

- Yaxşı sezə bilmirəm, əsgərlər orada neyləyirlər?- deyə soruşdu.

İlham, "bunun gözü də zəif imiş ki", ürəyində fikirləşib, gülümsədi.

İlham:

- Bizim əsgərlərdi. Yolları minalardan təmizləyirlər. Mahnı oxuyanı görmək istəyirdim.

Akif əlini İlhamın çiyninə qoyub gözlərini səmaya zillədi.

- Onlardan heç biri oxumur. Lent yazısıdır.- Akif kədərli halda dilləndi.

İlham təəccübləndi:

- Axı necə lent yazısıdır ki, heç bir musiqi alətinin səsi yoxdur.

Akif:

- Şəhid Xudayar Yusfzadənin lent yazısıdır. Heyf, Xudayar bu günü görmədi.- dedi.

Onlar bir müddət dinməzcə əsgərlərə baxdılar.

- Gedək, yolçu yolda gərək.- deyib, Akif İlhamın qoluna girdi.

Maşına çathaçatda Akif əli ilə İlhamın kürəyinə vurdu.

- Ay xətakar, məni yaman qorxuzdun, maşının açarını niyə özünlə götürmüşdün?- deyə, Akif yarıincik halda soruşdu.

İlham gülümsədi:

- Eytiyatlı oğlun anası ağlamaz. Nə bilmək olar, ermənidir də, birdən buralarda ilişib qalmış olar. Maşın əldən getsə, neyləyərdik?

Hər ikisi ətrafa baxıb qəhqəhə ilə gülüb maşına minərək yollarına davam etdilər.

***

Akifin hey pəncərədən boylanıb neçə gün əvvəl döyüş meydanı olmuş ərazilərə diqqətlə baxırdı. İlham dəfələrlə güzgüdən Akifə baxır, onun sifətindəki cizgilərin dəyişməsini maraqla izləyirdi.

İlham:

- Akif müəllim, deyəsən gözünüzə maraqlı nə isə sataşıb? – deyə soruşdu.

Akif etinasız halda cavab verdi:

- Yox, hec nə gözümə sataşmayıb.

İlham:

- Bayaqdan fikir verirəm, gözünüzü bir nöqtəyə zilləyib baxırsınız.

Akif:

- Baxmıram ey, sadəcə olaraq fikirləşirəm.- deyib köksünü ötürdü.

İlham soruşdu:

- Nə fikirləşirsiz?

Akif gözünü çöldən çəkib dedi:

- Fikirləşirəm ki, ermənilər 1 milyona yaxın azərbaycanlıları

qovub, cəmi-cümlətanı 50-60 min ermənini bu torpaqlara yerləşdirə bilib. 30 ildir ki, özlərinə səngər-tunel qazıb, viranə qoyublar. Yəqin ki, insansız qalan torpaqlarımız ermənidən diksinmiş olar. Axırı nə oldu, elə o səngərlərdə də üstlərini torpaq örtdü. Ölüsü-dirisi bilinməyən minlərlə günahsız insan məhv oldu.

İlham ərklə dilləndi:

- Arif müəllim, Müzəffər Ordumuzun qısa vaxt ərzindəki qələbəsindən bütün dünya danışır. Siz ermənilər haqqında çox da düşünməyin, bizim igid əsgərlərimizin qəhrəmanlığından yazmağı fikirləşin. Burada vuruşmuş, əl-ayağını, gözünü, sağlamlığını itirmiş, şəhid olmuş əsgərlər haqqında.

Akif:

- Düz deyirsən, ay İlham. Bizim əsgərlərimizin igidliyi olmasaydı, bu torpaq hələ neçə illər də erməni tapdağı altında qalası idi. Ermənilərin bədniyətlikləri olmasaydı, biz "papaq altında yatan oğlanlarımız" olduğunun da fərqinə varmazdıq. O ki qaldı, əsgərlərimizin şücayətinə.., bu barədə yazmaq... Yaza bilmərəm, mənlik deyil.- dedi.

Akifin son sözü İlhama pis təsir etdi. Maşının sürətini tamam azaldıb güzgüdən arxaya baxdı.

İlham:

- Niyə, niyə Sizlik deyil?- soruşdu

Akif:

- Yazıb, ahıl vaxtımda özümü biyabr edəsi deyiləm ki.- deyib, yol çantasını qurdalamağa başladı

İlham pərt halda soruşdu:

- Vətən torpağını düşmən taptağından azad edən

qəhrəmanlar haqqında yazmaq niyə biyabrçılıq hesab olunur?

Akif:

- İgidlərimizin qəhrəmanlığını tərənnüm edəcək əsər yaratmaq üçün səfərbərliyə yazılsam da, sənin kimi məni də məsləhət bilmədilər. Qələbəmizdən sonra minaya görə icazə vermək istəmirdilər.  Neçə-neçə qapı döyməli oldum. Bəxtin gətirdi ki, hərbi komissar bizi tanış etdi. Yoxsa, bu yerlər minalardan tamam təmizlənməmiş səni də buralara buraxmazdılar. İnsan üçün darıxmış torpağımızı, onun fədakar oğullarını görüb fikrimi dəyişdim. - sözünə ara verib.- Bayaq qulaq asdığın musiqi xoşuna gəldi?- soruşdu.

İlham dedi:

- Xoşuma gəldi də sözdür, rəhmətliyin çox şirin, ürəyəyatımlı səsi var imiş. Heyf, şəhid oldu. Sağ qalsaydı bəlkə də məhşur müğənni olacaqdı.

Akif yenidən gözünü pəncərədən çölə zilləyib danışmağa başladı:

- Xudayar bir mahnı ilə tarix yazdı. Biz bu dünyadan köçüb gedəcəyik, övlad və nəvələrimizdən savayı heç kəs bizi xatırlamayacaq. Amma, Azərbaycan yaşadıqca Xudayar kimi oğullarımız yaşayacaq. Hiss etdim ki, qəhrəmanlarımızdan yazmaq istəməməyim sənin xoşuna gəlmədi. İndi səbəbini başa salıram. Qəhrəman oğullarımız arasında təkcə məlahətli səsi olan müğənni yox, hər bir işi bacaranlar da olmamış deyil. Onların igidliyini təsvir etmək üçün bir əlində avtomat, bir əlində də qələm onlarla birlikdə səngərdə olmalı, dərə aşıb qayaya dırmaşmalı, onlar kimi ölümlə üzbəüz olmalı idim. İndi müharibə dayanıb. Inanıram ki, həmin əsgərlər arasında mənim qələmimdən də iti qələmi olan oğlanlar var. Və bu igidliyi

məndən də yaxşı tərənnüm edəcəkləri gün uzaqda deyil. Ömür vəfa etsə, mən də oxumaq istərdim, onların yazacaq hekayə-romanlarını. Mənə 30 ildə mənfur qonşularımızın sərsəm-sərsəm xəyalları ucbatından yaranmış torpağımızın iniltisini, insanlarımızın yaşadığı nakam həyatından yazmaq nəsib olsa, bəsimdir. - sözünə ara verib.-deyəsən çox uzunçuluq etdim. - dedi.

İlham:

-Yox, yox, Siz nə danışırsız. İndi Sizi başa düşdüm. Qarşıda yol dikə qalxır. Yuxarıdan təbiəti seyr elmək daha yaxşı olar. – deyib, qarşıdakı yola işarə etdi.

Maşın ağzıyuxarı qalxmağa başlayanda İlham yolun hədsiz dərəcədə kələ-kötür olduğunu görüb sürəti tamam azaltdı.

İlham söhbəti təzələdi:

-Akif müəllim, hər halda Siz məndən yaxşı bilərsiz, istedad istedadlığında, amma yazmaq üçün həvəs də lazımdır. Bu yaşda ki, Sizdə o həvəs var, inşallah, o barədə də yazmaq da nəsib olar! Gün o gün olsun, yazdığınız ssenari əsasında dəyərli bir kino çəkilsin. ”Oskar”-ı demirəm, Kannda layiqli bir yer tutsun. Vallah, düzünü gəzsəniz, indiki kinolarımızın çoxu güldürmək xatirinə çəklən filmlərdi. Camaat da əlacsız baxır.

Akif gülümsəyərək dedi:

- Əgər camaat sən deyən kinolara baxırsa, deməli günün tələbatına cavab verir. Əslinə qalsa, son dövrlərdə çəkilmiş həmin kinoları millətimiz, kino sənətimiz üçün çox dəyərli hesab etmək olar.

İlham narazı halda:

- Yəqin ki, siz onlara baxmayıbsız. Şit-şit səhnələrlə doludur. Axı onlara necə sənət əsəri demək olar? Hərəsi bir sponsorun hesabına dolanır. - dedi.

Akif öz fikirlərini əsaslandırmağa çalışdı:

-Birincisi, həmin kinoları ərsəyə gətirənlər özlərini sevdiyi sənətə qurban verən fədakar adamlardı. Sənin xəbərin yoxdur, elə rejissorlar var ki, əllərində olan-qalanı kinoya qoyub, tamam müflis olublar. Bazar iqtisadiyyatı ilə ayaqlaşmalısan. Sən niyə sponsor tapıb "Formula-1"də iştirak edə bilmirsən? İkincisi, əgər indi bizim bəyənmədiyimiz kinolar olmasa, kino sənətimiz tamam məhv olar. Sağ olsunlar, "Hər oxuyan Molla Pənah olmaz ki", pis-yaxşı, kinomuzu ölməkdən xilas edirlər. Ümumiyyətlə, internetin inkişafının da təsiri var. Indi insanlar kinolara internetdə baxırlar. Mən fikir vermişəm, bəzi adamlar metroda, avtobusda gedəndə də telefonla kinoya baxır.

İlham:

-Yaxşı yadıma saldınız, görəsən buralarda da internet var?

İlham telefonu əlinə alıb gözaltı ona baxmağa başladı.

Akif:

- Fikrini yoldan yayındırma, mənzil başına çataq, baxarsan.

Dik yoxuşu qalxan kimi İlham maşını yolun kənarına çəkib dayandıraraq telefonuna baxmağa başladı.

İlham:

- Yox ey, mənə maraqlıdır.

Akif fotoaparatını yol çantasından çıxardı.

- Boynuma alım ki, bayaq sən maşından düşəndə narahtçılıq keçirdim. Ona görə də, bir-iki şəkil çəkmək ağlıma gəlmədi. Maşın dayanmışkən düşüb bir neçə şəkil çəkim.-dedi.

Akif maşından düşdü. İlham da maşının qapısını açdı. Telefonu əlinə alıb, yuxarı qaldırdı. Bir neçə dəfə telefonun səmtini dəyişdirdi.

İlham:

-Akif müəllim, buralarda internet nədir, heç telefon da işləmir. Qəribədir, əsgərlərimiz vidiolarını internetə necə yerləşdirirdilər?

Akifin həvəslə şəkil çəkdiyini görüb öz kiçik təlabatını ödəmək üçün yol kənarındakı kolun arxasına keçdi. Bir az keçməmiş o, qarşı tərəfdəki yamaca baxa-baxa geri döndü. Maşına oturub motoru işə saldı.

Akif maşına oturan kimi dilləndi:

- Kapitan tapşırdı axı, yoldan kənara çıxmaq olmaz, təhlükəlidir. Sür gedək.

Motoru işə salmağına baxmayaraq, İlham hərəkətsiz maşından gözünü qarşı tərəfdəki yamaca zillədi. Akif onun diqqətlə nəyə baxdığını müəyyənləşdirmək üçün sol tərəfdəki oturacağa keçdi. Pəncərədən qarşı tərəfdəki yamaca diqqətlə baxdı. Bir neçə dəfə eynəyini gözünə taxıb çıxardı. Ətrafda kolluqdan başqa heç nə gözə dəymirdi. İlhama tərəf boylandı. Onun hələ də yamaca diqqətlə baxdığını gördü.

Akif:

- Gözünü nə zilləyib baxırsan, adicə kolluqdur də.- deyib, sağ oturacağa keçdi.-Tərpən, hələ qayıtmağımız da var, qaranlığa düşərik.

İlham həvəssiz halda maşını yerindən tərpətsə də, gözünü yamacdan çəkirmirdi. Bir neçə metr getdikdən sonra yenidən maşını yolun kənarına çəkib dayandırdı.

Akif mülayimcəsinə dilləndi:

- Mən eynəklə də diqqətlə baxdım, adicə kolluqdur. Axı, sən o tayda nə görmüsən?

İlham:

- Kolun arxasında olanda bir anlığa yamacda bizə tərəf əl yelləyən əsgər gördüm.- deyib, Akifə tərəf döndü.

Akif yenidən əyilib pəncərədən yamaca baxsa da, heç kimi görmədi.

- İndi də görürsən? – deyə soruşdu.

İlham cəld cavab verdi:

-Yox, indi gözümə dəymir.

İlham telefonun kamerasını yamaca yönəldib diqqətlə baxmağa başladı.

Akif etinasız halda dilləndi:

-Gözünə heyvandan zaddan görünsəydi, inanmaq olardı. Bütün günü əsgərlərdən danışmışıq. Odur ki, gözünə əsgər görünməyi təəccüblü deyil. Gözün səni aldada da bilər.

İlham:

-Gözüm məni aldada bilməz. Əminəm ki, gördüyüm əsgər idi, bayaqkı əsgərlər kimi. Biz tərəfə əlini də yellədi. Amma bir anlığa, sonra yox oldu. Mənə elə gəldi ki, əsgər bizə əl edən anda yıxıldı.

Akif:

- Kolluğun şəklini çəkirsən?

İlham:

-Kamera ilə uzağı yaxınlaşdırıram, bəlkə həmin yeri yaxından görə bildim. Ola bilsin ki, yaralıdır, ayağa dura bilmir.

Hər ikisi diqqətlə kolluğu nəzərdən keçirdi.

Akif soruşdu:

- Hansı kolun yanında görübsən, yadında qalıb?

İlham heyfsləndi:

- Yadımdadır, amma, çox uzaqdı, dəqiq görmək olmur. Binokl olsaydı, dəqiq görmək olardı.

Akif:

- Bunu bayaqdan de də, tamam huşumdan çıxıb. Mədinə çantama binokl qoyub.

İlham:

-Mədinə kimdir?

Akif:

- Nəvəmdir.- dedi.

O, cəld yol çantasından binoklu çıxarıb, İlhama verdi. İlham binoklla yamaca diqqətlə baxmağa başladı. Akif də maraqla gah yamaca, gah da ona baxırdı.

- Bir şey görə bilirsən?- deyə, Akif səbri tükənmiş halda soruşdu.

İlham:

-Həmin kolu görürəm. Açıqca hiss olunur ki, orada adam olub. Amma, əsgər gözə dəymir.

Akif:

- Heç nə gözünə dəymirsə gedək. Durduğumuz yerdə başımıza oyun açarıq.-deyib, İlhamın qolundan tutdu.

İlham:

-Gördüm, gördüm, Akif müəllim. Odur ey, kolların arası ilə üzü aşağı sürünür.

Akif:

- Hanı, ver baxım.-binoklla İlhamın göstərdiyi əraziyə

baxdı.- Görürəm, mən də gördüm, yazıq lap əldən düşüb ki.

İlham:

-Yəqin ki, bizi görüb, yanımaza gəlmək istəyir. Bəlkə mən gedib ona kömək edim?

Akif ciddi görkəm alıb, etiraz etdi:

-Olmaz, qəti şəkildə yoldan kənara çıxmaq olmaz.- başını qaşıyıb, sözünə davam etdi.- Əsgər bəlkə də heç bizi görmür. O, sadəcə olaraq, bizim yanımıza yox, yola çıxmağa can atır. Günün ağzı axşama gedir, gecəyə qalsa qurd-quşa rast gələr. Onu bu vəziyyətdə də qoyub getmək olmaz. Diqqətlə bax, əlində silah görünmür ki?

İlham yenidən yamaca baxdı:

- Yox, deyəsən, ayağından yaralanıb, ona görə sürünür.

Akif:

-İndi üzüaşağı sürünür, bunun hələ üzüyuxarı dırmanmağı da var. Bu gedişlə yanımıza on saata çatar.

İlham:

- Ona görə deyirəm də, gedim kömək edim. – deyib maşından düşmək istəyir.

Akif əl atıb İlhamın çiynindən tutdu.

-Dayan, maşından düşmə. Yaxşısı budur ki, maşını geri döndər.

İlham:

- Niyə?

Akif:

- Sən məndən cavansan, düşüb bərkdən çığır ki, yerindən tərpənməsin. De ki, kömək dalınca gedirik. Ona kömək etmək üçün bayaqkı əsgərləri köməyə çağırmalıyıq.

İlham maşını geri döndərdi. Maşından düşüb üzüaşığı sürünən əsgərə səsləndi.

İlham:

- Əsgər, sən özünə əziyyət vermə.-dedi.

Əsgər İlhamın səsini eşidəcək dikəlib oturdu.

Akif:

- De ki, səbrli olsun. Biz kömək dalınca gedirik.

İlham:

- Səbrli ol, yaxınlıqdakı əsgərlərə sənin barədə məlumat verib qayıdacağıq.

İlham əsgərdən səs çıxmadığını görüb dediklərini hər ehtimala qarşı əli ilə də başa salmağa çalışdı. Əsgərin əlini yuxarı qaldırdığını görüb, cəld maşına mindi.

Akif:

- Görəsən, sənin dediyini başa düşdü?

İlham:

- Başa düşdü. Hələ mənə əl də yellədi. - deyib maşını qəfl yerindən tərpətdi.

***

İlham maşını əsgərlərin yanında saxlayan kimi Akif məsləhət verdi.

-Tələsmə, gördüyünü səbrlə danış ki, onlar nə edəcəklərini dürüst bilsinlər.

İlham səbrsiz halda:

- Akif müəllim, narahat olma, hərbi sirr zad demirəm ki. Kolluqda əsgər gördüyümüzü deyəcəm də.- deyib maşından düşdü.

İlham əhvalatı olduğu kimi başına toplaşan əsgərlərə

söylədi. O, sözünü bitirən kimi leytenant kənara çəkilib qərargahla əlaqəyə gürdi. Lazımı təlimat-göstəriş aldıqdan sonra onlara yaxınlaşdı.

Leytenant:

- Qərargahla danışdım. Sanitar maşını tezliklə yola düşəcək. Amma, vaxt itirmək olmaz. Sən bizi həmin yerə apara bilərsən?

İlham:

- Bu nə sözdür, bəs sizin yanınıza niyə gəlmişəm. Maşın sizin qulluğunuzda hazırdır.

Leytenant:

- Səsgücləndiricini də götürün.-deyib, 3 nəfər əsgərə yola düşmək üçün göstəriş verdi.

İlham cəld maşına minib:

- Akif müəllim, inciməyin. Siz burada qalmalı olacaqsız. Leytenant özü ilə 3 nəfər əsgər də aparmaq istəyir.- dedi.

Akif:

- Nədən inciməliyəm ki. Siz qayıdana kimi mən də əsgərlərlə yaxından tanış olaram. Özümə lazım olanları soruşub öyrənərəm. Təki, yaralı əsgəri sağ-salamat oradan çıxarasız. – deyib, sakitcə maşından düşdü.

Leytenant və əsgərlər lazımi avadanlıqları maşına yükləyib minən kimi İlham “Ya Allah” deyib, maşını yerindən tərpətdi.

Akif maşının dalınca baxıb əllərini yuxarı qaldırdı:

- Xudaya, sən özünü bu cavanlara kömək ol!- deyib, əsgərlərə yaxınlaşdı.

***

İlham yaralı əsgəri gördüyü yerə çatıb, maşını yolun

kənarında saxladı. Maşın dayanan kimi leytenant və əsgərlər cəld maşından düşdülər. İlham binoklla yamaca baxıdı, amma əsgəri görə bilmədi.

- İlk dəfə orada, son dəfə isə burada gördüm. –deyə İlham əsgəri gördüyü istiqaməti leytenanta işarə verdi.

Leytenat tələsmədən binoklla ərazini diqqətlə nəzərdən keçirdi. İlhamın işarə verdiyi yerdən xeyli aşağı hissədə yaralını görüb, səsgücləndiricini əlinə aldı.

Leytenant:

- Əsgər, yerindən tərpənmə, səbrli ol, biz sənə köməyə gəlirik.-deyib, səsgücləndiricini yanındakı əsgərə verdı.

Əsgər leytenantın dediyini rus dilində təkrar etdi.

Leytenant:

- Əsgər Məmmədov, keşikdə qal.- deyib, əli ilə əsgərlərə irəli getməyi işarə etdi.

Leytenant və 2 nəfər minaaxtaran əsgər ehtiyatla üzüaşağı yollandılar. Keşikçi əsgər avtomatını döyüş vəziyyətində sinəsinə sıxıb ətrafa nəzarət etməyə başladı. İlham maraqla minaaxtaranların arxasınca bir xeyli baxıb keşik çəkən əsgərə yaxınlaşdı.

-Niyə leytenantın dediyini rus dilində də səsgücləndirici ilə səsləndirdiniz?-deyə İlham soruşdu.

Əsgər gözücü İlhama baxdı:

- Azərbaycan onu sevən hər kəsin Vətənidir. Nə çox bizim Albertlərimiz, Dmitrilərımız. Rusdilli əsgərlərimiz də az deyil, yaralanıb, kontuziya ala da bilərlər. Hər ehtimala qarşı, rus dilində də demək lazımdır.

İlham heç nə demədən əsgərdən aralanıb var-gəl edərək

diqqətini həyacanla uzüaşağı, dərəyə cəmlədi. Çox keçmədi ki, maşın səsini eşidib, səs gələn səmtə baxdı. Uzaqdan piyada döyüş maşının müşayəti ilə tibb-sanitar qrupunun hadisə yerinə gəlməsini görüb dərindən nəfəs aldı.

Maşınlar hadisə yerinə çatan kimi əsgərlər maşından düşüb dərəyə enməyə başladılar. Tibb heyəti yaralını qəbul etmək üçün xərəklə yolun kənarında dayandılar. İlhamın gözü kürəyində "press" lövhəsi olan orta yaşlı jurnalistə sataşdı.

İlham:

-Yəqin jurnalistdir. –deyə, ürəyində fikirləşdi.

Hamı səbirsizliklə əsgərlərin gəlməsini gözləyirdi. Jurnalist kiçik aparatı ilə vidioçəkilişə başladı.

-Əsgərimizin xilas edilməsini çəkimək lazımdır, Akif müəllim üçün də maraqlı olar. Yaralı əsgərlə şəkil çəkdirib anama göstərərəm.- fikirləşib telefonunu götürmək üçün maşınına tərəf getdi.

Telefonla maşınının müxtəlif istiqamətlərdən şəklini çəkdi. Sonra maşının yan tərəfinə söykənib çəkdiyi şəkillərə baxdı. .Xoşuna gəlmədiyi şəkilləri pozduqdan sonra əli ilə mühərrikin qapağını tıqqıldatdı.

İlham:

- İndi yaralı əsgərimizi xilas edəcəklər. Sənin az da olsa da xidmətin oldu! – dedi.

İlham selfi qaydada özünün də şəkillərini çəkməyə başladı. Bir neçə dəfə şəkil çəkmişdir ki, qəfildən, hərbiçilərın xərəkdə yaralını tibb maşınına tərəf gətirirdiklərini gördü.

Yaralı xərəkdə üzanmış vəziyyətdə idi. İlham fasiləsiz olaraq şəkil çəksə də, yaralı əsgərin sifətini çəkmək mümkün

olmurdu. Xərəyi tibb maşınına yerləşdirəndə nədənsə, yaralı başını bir anlığa dik qaldırıb ətrafa baxdı. İlham həmin anı əldən buraxmayıb yaralı əsgərin də şəklini çəkə bildi.

***

Tibb və piyada döyüş maşını qərargaha yola düşən kimi əsgərlər yenidən avadanlıqlarını maşına yerləşdirdilər. Leytenant maşına minən kimi İlham mühərriki işə salıb geri döndərdi.

İlham bir neçə dəfə leytenantdan yaralı əsgər haqqında soruşmaq istəsə də, əsgərlərin bu barədə bir kəlmə də danışmadığını görüb "hərbi sirr də ola bilər" düşünüb fikrindən daşındı.

***

Maşın Akifin bərarərliyinə çatıb dayandı. Leytenant və əsgərlər İlhama təşəkkürünü bildirib maşından düşərək onları gözləyən hərbi maşına minib ərazidən uzaqlaşdılar.

Akif maşına minən kimi soruşdu:

- Əsgər bərkmi yaralanmışdı?

İlham yarılovğa halda cavab verdi:

- Deyəsən, adi əsgər deyildi. Sinə tərəfində paltarında qan görünmürdü. Başqa yerlərinə baxa bilmədim. Üstünə xalat sərilmişdi.

Akif dedi:

- Allah üzünə baxdı, sən olmasaydın gecə qurd-quşa yem olacaqdı.

İlham qürürlandı..

Akif:

- Deməli, fəxr edə bilərsən ki, Qələbəmizdə sənin də payın var. Sür gedək.- dedi.

İlham:

-İrəli!- deyib, maşını yerindən tərpətdi.

Akif:

- İrəli yox, geriyə gedək.- dedi

İlham:

- Niyə geriyə? Bəs Sizin təəssüratınız necə olacaq?- deyə, soruşdu.

Akif dedi:

- Bir insan həyatı, min təəssüratdan irəlidir. Mənə lazım olanları əsgərlərlə söhbətimdə əldə etmişəm. İkincisi də gecdir, qaranlığa düşərik.

***

Yolboyu İlhamla Akifin söhbətlərinin əsas mövzusu yaralı əsgər oldu. Əsgərin kolluğa haradan gəlməsini hərə bir cür yozdu. Hətta, Akif yaralının əsirlikdən qaçmağa müvəffəq olub, düşmən tərəfindən arxadan güllə ilə vurulmaq versiyasını da istisna etmədi. Umumi fikir belə oldu ki, hər halda, əsgər yaralı da olsa, özünü itirməyib sürünə-sürünə ölümdən xilas ola bilib.

Qərargaha çatanda Akif əli ilə İlhama maşını kənara çəkib dayandırmağı işarə etdi. İlham maşını yolun kənarına çəkib dayandırdı.

Akif:

- Sən maşında gözlə. Mən kapitana təşəkkürümü bildirib tez də qayıdacam. Yolçu yolda gərək. – deyib, maşından düşdü.

Akif qərargahın buinasına daxil olana qədər, İlham onun arxasınca baxdı. O, hərbiçilərə mane olmamaq üçün maşını qərargahdan kənara sürüb münasib yerdə saxladı. Maşını elə

saxladı ki, Akif qərargahdan çıxanda onu görə bilsin. Bir neçə dəfə güzgüdən baxsa da, Akif görünmədiyi üçün maşından düşüb var-gəl etməyə başladı.

Həhayət, Akifin bir əsgərlə qərargahdan çıxdığını görüb, cəld maşına oturub motoru işə saldı. Akif maşının arxa qapısını açıb öz çantasından dəsmal bağlamanı İlhamın çantasına qoyub, qapını örtdü. O, çantanı əsgərə verib, nəyi isə izah etdikdən sonra əsgər qərargaha tərəf geri döndü.

İlham yan güzgüdə Akifin hərəkətlərini izləsə də, nə etmək istədiyini anlaya bilmədi. Onun maşının arxa tərəfinə keçib qabaq qapıya tərəf gəldiyini görən kimi İlham maşından düşdü.

Akif:

- İlham, bala, hər şeyə görə çox sağ ol. Sənin sayıqlığın nəticəsində insan ölümdən xilas edildi. Sən qorxmaz və fədakar oğlansan! Gecikmə, işıqgözü düşməndən azad edilmiş ərazidən uzaqlaş.- dedi.

- Bəs, Siz? Siz gedəsi olmadınız?- deyə İlham təəccüblə soruşdu.

- Hə, mən qalası oldum, bəzi materialları toplamaq üçün çətinliklə də olsa, ön xəttə getməyimə razılıq ala bildım. Sənin maşının oralara gedəsi deyil, əsgərlər BMP ilə apacaqlar.- deyib, İlhamı qucaqladı.

İlham əvvəlcə Akifin sozündən duruxdu, sonra hərbi qaydada farağat formasını aldı.

- Baş üstə! – deyib, hərbi qaydada əlini başına dirədi.

Hər ikisi gülüb, yenidən qucaqlaşdılar. İlham maşına oturub yola düşmək istədi.

- Evə çatan kimi zəng vurarsan.- deyib Akif maşından kənara çəkildi.

Akif qərargaha tərəf bir-iki addım atdıqdan sonra dayandı, geri dönüb maşının arxasınca baxdı.

- Bütün günü ac qaldı. –deyib, qərargaha getdi.

***

Mətbəxdə Səidə xanım yarpaq dolması bişirmək üçün tədarikünü yekunlaşdırıb, gözaltı saata baxdı. Əllərini silib, İlhamın yataq otağına yaxınlaşdı.

-İlham, a bala, oyan, gün-günortadır.- qapını azacıq aralayıb dedikdən sonra, onun cavabını gözləmədən mətbəxə qayıtdı.

Səidə qazanı ocağın üstünə qoyub əllərini yuyarkən, İlham yarıyuxulu vəziyyətdə mətbəxə daxil olub anasını qucaqladı.

-Ay ana, şənbə günüdür də. Onsuz da hər yer bağlıdır, gedəcək yerim də yoxdur. - masanın üstünü boş görüb, - Menyuda nə var?- deyə, soruşdu.

Səidə:

- Ana qurban, həmişəki kimi, çay, yağ-pendir. İstəsən, şirin qoğal da var. Əl-üzünü yu, mən də çayını süzüm.

İlham:

-Toyuq, soyutma toyuq var?

Səidə:

-Bıy, başıma xeyir. Sənə səhər yeməyinə yağ-pendiri zorla yedizdirmək olmur. Birdən-birə toyuq hardan ağlına gəldi?

İlham:

-Elə-belə dedim, meylimə düşdü.- deyib, yuyunmağa getdi.

Səidə öz işi ilə məşqul olur. İlham yuyunub mətbəxə daxil olub anasının hazırladığı masa arxasına oturmaq istəyirdi ki, masanın üstündə soyutma toyuq görüb təəccübləndi.

İlham:

-Ana, toyuğu nə tez hazırladın?-əyilib toyuğu iyləyir. -nə xoş da iyi var!

Səidə:

- Özün aldığın toyuqdur də, yəqin, ona görə də sənə xoş gəlir. Mən sadəcə olaraq sobaya qoyub isindirmişəm. - deyib, toyuğu hissələrə bölməyə başladı.

İlham təəccüblə soruşdu:

-Ay ana, mənim  birdən-ikiyə toyuq aldığım olub?

Səidə:

- Yoxx. Amma, vallah, sənin  yol çantada idi. Soyuducuya qoydum ki, xarab olmasın.

Səidə toyuqdan bir tikə qoparıb oğlunun qarşısındakı boşqaba qoydu. İlham dodağını dişlədi.

-Çantamda neçə toyuq var idi? –deyə, soruşdu.

Səidə dedi:

- Ana qurban, elə bircə dənə idi. Necəsini almışdın ki?

İlham:

-Almamışan ey, ay ana.  Akif müəllimin toyuğudur, iki dənə idi. Əsgərlərə verməyi yaddan çıxarmışdı. Amma, qardaş malı kimi bölub.- deyib, iştahla toyuğu yeməyə başladı.

***

Qərargahın tibb məntəqəsində ayağından yaralanmış Kamo hərbi müstəntiqə başına gələnləri danışır.

***

İş yeri. Əməkdaşlar öz işi ilə məşğuldurlar. İlham işdən ayrılmadan telefonun dəstəyinu çiyni ilə sıxaraq xısın-xısın Orxanla danışır. İş masasının üstündə Şəhid Məmmədov Abid Asif oğlunun şəkli. Şahnaz öz işi ilə məşqul olsa da, fikri İlhamın danışığındadır. Nazlının arxasında və kompyütürində Şəhid Arəstə Baxışovanın portireti.

İlham:

-Gecə yarı qayıtmışam. – telefona qulaq asıb,-yox, problem olmadı. Bircə yerdə yoxladılar. Ezamiyyət vərəqəmə baxıb, "yaxşı yol" dedilər.

Orxan soruşur:

- Maşın yolda sizi incitmədi ki?

İlham lovğa halda cavab verdi:

- Yox, nə danışırsan. Elə rahat gedib qayıtdım ki, heç yorğunluq da hiss eləmədim. Elə bil ki, "İpək Yolunda" idim. - telefona qulaq asıb, - Əsas yoldan kənara çıxmadıq. Bir ara istədim dağa dırmaşdıram, qoca icazə vermədi... Akif müəllimi deyirəm də. Qərargahda da xəbərdarlıq etmişdilər ki, ehtiyatlı olaq, ermənilər hər yana "kartof əkiblər".

Orxan:

- Kartofun işğaldan azad olunmuş əraziyə nə dəxli var ki?- deyə soruşdu.

İlham gözaltı Şahnaza, sonra Nazlıya baxdı:

- Kartof deyəndə ki, minanı nəzərdə tuturlar də. Deyilənlərə görə o qədər basdırıblar ki. Elə bil ki, otuz ildur işləri-gücləri ancaq ondan ibarət olub. Hər yanı da xaraba qoyublar.

İlham Orxanın danışığına qulaq asaraq arabir başı ilə deyiləni təsdiq edir.

Qrxan:

- Əsgərlərlə görüşüb, söhbətləşə bildiniz?

İlham:

-Hə, Qoca bir saatdan çox minaaxtaranlarla bir yerdə oldu.

Qrxan:

-Şəkil çəkməmiş olmazsan. Bir-ikisini Votsapla göndər baxaq. Bəlkə əsgərlərdən tanıdığımız oldu.

İlham:

-Lap çox çəkmişəm. Telefonumun yaddaşı dolub. Hamsını kompyuterə köçürürəm. Votsapla paylaşmaq olmaz, hər halda hərbi vəziyyətdir. Narahat olma,  bir neçəsini saxlaycam, görüşəndə baxarsan.

İlham telefonun dəstəyini yerinə qoyub kompyuterdə işini görür. Şahnazla Nazlı gözaltı bir-birinə baxıb, İlhama işarə ilə göz-qaş edirlər.

Şahnaz ayağa qalxıb arxası İlhama dayanıb kitab rəfində qovluqlara baxaraq, əli ilə Nazlıya işarə edir ki, İlhama yaxınlaşsın. Nazlı İlhamın diqqətlə kompyuterə baxdığını görüb başı ilə Şahnaza işarə edir ki, onun özü İlhama yaxınlaşsın.

Şahnaz rəfdən qovluğu götürüb vərəqləyərək dedi:

- İlham, Qarabağda çəkdiyin şəkillərdən bizə də göstərə bilərsən? Hərbi sirr olmayanları nəzərdə tuturam, hansını məsləhət bilirsənsə, o şəkilləri. Deyirəm, birdən təsədüfən bacıoğlu Saleh də onların arasında olmuş olar. Kəşfiyyatçıdır, ayağından yaralanıb. Bir neçə gün əvvəl Qubadlıdan zəng etmişdi. Dediyinə görə vəziyyəti yaxşıdır.

İlham:

- Şahnaz xanım, mən qalib Ordunun döyüşçülərinin

şəklini çəkmişəm. Qələbəmiz hərbi sirr deyil ki! Sadəcə olaraq, Vatsapla paylaşmaq məsləhət deyil. Bir neçə şəkil qalıb, onları da kopyüterə yerləşdirim, buyurub baxa bilərsiz.

Şahnaz razılıq edib özündənrazı halda Nazlıya göz vurub, masa arxasında oturdu. Çox keçmədən İlham kompyuterin ekranını yana döndərib, ayağa qalxdı.

İlham:

- Buyurub baxa bilərsiz. Ya qismət, bəlkə də bacıoğlunuzun şəklini görə bildiniz. Amma, inanmıram, əsgərlərin hamsı minaaxtaranlar idilər.

İlham masanın üstündən alışqanı götürüb otaqdan çıxdı. Şahnaz cəld İlhamın kompyuterinin arxasında oturub maraqla şəkillərə baxmağa başladı. Nazlı da şəkillərə baxmaq üçün əlindəki qovluğu tələsik səhmana saldı.

Şahnaz:

-Afərin İlham!!!

Nazlı:

-Şəkilləri çevirmə. Nə olsun ki, cəbhədə qohumlarım yoxdur, mən də baxmaq istəyirəm.

Onlar birlikdə kompyüterdəki şəkillərə baxdılar. Şahnaz şəkillərə baxdıqdan sonra ayağa qalxdı.

Şahnaz:

- İlham dediyini elədi də, cəbhəyə aparmasalar da azad olmuş Qarabağa hamıdan əvvəl getdi.

Şahnazla Nazlı hərə öz masası arxasına oturub, işləri ilə məşğul olmağa başladılar. Nazlı  qəfldən qələmini masanın üstünə qoyub, nəyi isə xatırlamağa çalışdı.

Şahnaz soruşdu:

- Nə olub, yadına nə düşdü?

Nazlı:

- Deyəsən, saçındakı ağ xalı olan yaralı əsgər bizim qonşumuz Zərifə xalanın oğlu Kənandır. Sifətdən də oxşayır. Yaralanmağını eşidib, anam o gün Zərifə xalaya baş çəkməyə getmişdir. Yazıq arvad, oğlunun yaralanmağını eşidib yorğan-doşəyə düşüb.

Şahnaz:

- Anadır də. Ürəyi dözmür.

Nazlı:

- Anam deyir ki, Kənan Zərifənin həm tək övladı, həm də nəsil- nəcabətində sağ qalan yeganə adamdır.

Şahnaz:

- Başqa qohum-əqrabası yoxdur ki?

Nazlı:

- Yoxdur. Kəlbəcərlidirlər. Anam deyir ki, o vaxtlar ermənilər bunları evlərindən qovanda, hamını güllələyiblər. Sağ qalan təkcə ana-bala, bunlar olublar.

Şahnaz:

- Qansız köpək uşağı... Nazlı, bəlkə şəkli aparıb Zərifəyə göstərəsən, arvada toxtaxlıq olar.

Nazlı:

- Şəkil barədə Zərifə xalaya deyərəm ey, amma, qorxuram ki, birdən şəkildəki başqa əsgər olsun. Peşimançılıq olar.

Şahnaz:

-Gəl şəkilə diqqətlə bir də baxaq.

Nazlı ilə Şahnaz yenidən kompyuterdəki yaralı əsgərin şəkillərinə baxmağa başladılar.

Nazlı:

- Mənə elə gəlir ki, Kənanın şəklidir.

Şahnaz:

- İlham gəlsin, soruşarıq. Bəlkə, yaralı əsgərin adını bilir.

Hər ikisi öz masası arxasında oturub İlhamın gəlişini gözləməyə başladılar. İlham otağa daxil olub kompyuterin arxasında əyləşdi.

Şahnaz:

- İlham, təsadüfən, yaralı əsgərin adını bilmədin?

İlham:

-Yox, necə bəyəm? Sizin bacıoğlunuza oxşayır?

Şahnaz:

- Mən bacıoğlumu min əsgərin içində də tanıyaram. Bu əsgər Nazlıya tanış gəldi. Daha doğrusu, qonşularının oğluna oxşatdı. Adını bilsəydin, əla olardı. Əgər qonşuları olsaydı, aparıb şəklini anasına göstərərdik. Eşidib ki, yaralıdır, ürəyi yerinə gələrdi.

İlham:

-Dəqiq bilməsək, şəkli göstərmək olmaz.

Nazlı:

-Onda, nə adla şəkli ona göstərə bilərik?

İlham:

-Qonşudur. Qonşulara şəkli göstərib tanıyıb tanımadıqlarını soruşarıq. Desələr ki, həmin adamdır. Yaralı əsgərin anasına başçəkmək adı ilə evlərinə gedərik. Söhbət əsnasında şəkli də göstərərik. Əgər onun oğlu olsa, tanıyacaq.

***

İlham, arxasınca Şahnaz və Nazlı idarənin binasından çıxdılar. İlham cəld maşına əyləşib mühərriki işə salır. Nazlı

maşına oturur. Şahnaz da maşına minmək istəyərkən yadına nə isə düşür, geri qayıtmaq istəyir.

İlham:

- Şahnaz xanım, nə oldu, niyə geri qayıdırsız?

Şahnaz:

- Maskamız yaddan çıxıb.

İlham:

- Əyləşin, maska problem deyil, mənim ehtiyatda varımdır.

İlham maşının sandıqcasından maska çıxarır. Hər üçü maska taxır. Maşın idarənin həyətindən çıxır.

***

Bir neçə küçəni keçdikdən sonra İlham maşını saxladı.

İlham:

-Şahnaz xanım, erməni raketinin dağıtdığı bina bu həyətdədir.-deyib, yaxınlıqdakı həyətə işarə etdi.

Şahnaz:

- Bilirəm. Allah bəlalarını versin.

Nazlı:

- Sağ tərəfdəki küçənin sonundakı çörək sexinə düşən raket partlamamışdır. Işin gur vaxtı düşmüşdü. Partlasaydı işçilərin hamsı həlak olardılar, hələ nə qədər də müştəri.

Şahnaz:

- Faşistlərlə bunların fərqi yox imiş.

***

İlham növbəti döngəni dönüb maşını məhlələrinə tərəf sürdü. Uzaqdan insan axınını görüb maşının surətini tamam azaltdı.

İlham ürəyində fikirləşdi:

-Deyəsən, rəhmətə gedən var. Allah rəhmət eləsin. Amma, koronovitus vaxtı bu qədər adamın yığışması nəyə lazımdır?

İnsan axını yaxınlaşanda tabutun üzərində Azərbaycan Bayrağını görən kimi İlham maşını yolun kənarına çəkib saxladı. Cəld maşından düşüb əsgərlər kimi "fərəğət" dayandı. Nazlı ilə Şahnaz da maşından düşüb İlhamın yanında durdular.

İlham:

- Görəsən bizim məhlədən kimdir şəhid olan?- öz-özünə dilləndi.

İnsan izdihamı onlara yaxınlaşanda şəhid olmuş həyat yoldaşının nəşini çiynində aparan qadını tanıdı, kövrəldi.

İlham:

-Röyalın yoldaşıdır. Firuzədir.

Cənazə onların bərabərliyindən keçəndə hıçqırtı səsinə dönüb Şahnaza baxdı. Şahnaz dəsmalını ağzına dirəyib ağlayırdı. Nazlı Şahnazın boynunu qucaqlamışdı, səsi çıxmasa da, gözləri dolmuşdu.

İlham özlüyündə:

-Türk Aslanın-Türk Qadını. Nankor qonşularımızın ucbatından neçə-neçə nər kimi oğullarımızı itirmişik. Allah rəhmət eləsin. –deyib, iş yoldaşlarına,- Əyləşin maşına, gedək. - dedi.

***

Nazlı Həmidin mağazasını görüb dedi:

- İlham, saxla maşını. Həmid dayının mağazasıdır. Onun bu məhlədə tanımadığı adam yoxdur. Birinci ona göstərək, o, tanıdısa, deməli şəkildəki Kənandır.

İlham yaralı əsgərin şəklini götürüb maşından düşdü.

Nazlının işərə verdiyi mağazaya getdi. Şahnaz və Nazlı nigarançılıqla İlhamın geri qayıtmasını gözlədilər.

***

Həmid İlhamın göstərdiyi şəkilə gözücü baxdı.

- Zərifənin oğludur, eşitdiyimə görə cəbhədə yaralanıb.- deyə qətiyyətlə dilləndi.

İlham:

-Həmid dayı, şəkil ötəri çəkilib, Zərifə xalaya göstərmək istəyirəm. Xahiş edirəm ki, diqqətlə baxasınız, onun oğlu olmasa biyabır olaram.

Həmid şəkli əlinə alıb diqqətlə baxdı:

-Ay oğul, Kənanın şəklidir də. Mən səhv edə bilmərəm ki. Əgər ekiz qardaşı olmuş olsaydı səhv edə bilərdim, gözümüzün qabağında böyümüş uşaqdır. Evləri də tinə çatmamış göy qapıdır.- şəkli İlhama qaytardı.-Zərifənin görüşünə ürəklə gedə bilərsən.-dedi.

İlham Həmidə təşəkkür edib, maşının yanına qayıtdı. Maşına minmədən Həmidin şəkildəki əsgərin Kənan olduğunu qətiyyətlə bildirdiyini dedi.

İlham:

-Həmid kişi şəkilə baxan kimi dedi ki, Zərifənin oğludur.

Nazlı:

-Gördünüz, Həmid kişi də Kənanı tanıdı.

İlham maşına oturub mühərriki işə saldı

***

Zərifənin evinə çatmamış İlham maşını yolun kənarında saxladı. Hər üçü maşından düşüb həyətin giriş qapısını döyürlər.

Qapını Zərifənin gəlini açdı. Gələn qonaqlardan Nazlını tanıdı.

Gəlin:

-Nazlı, xoş gəlibsiniz, buyurun icəri. – deyib, onları həyətə dəvət etdi.

İlham:

-Salam, xanım. Zərifə xalanı görmək istərdik, olar, evdədir?

Gəlin:

- Niyə olmur ki. Buyurun.- deyərək, onları evə dəvət etdi

Zərifə öz otağına oğlan nəvəsi ilə divanda oturub televizora baxsa da fikri masa arxasında əyləşib bayraq şəkli çəkən qız nəvəsində idi. Qapının açılmasını və gəlinilə birlikdə kimlərinsə evə daxil olmasını hiss edib axsaya-axsaya dəhlizə çıxdı.

Gəlin Zərifəni görəcək dilləndi:

- Ana, qonşu Ulkərin qızıdır. İş yoldaşları ilə sənə baş çəkməyə gəliblər.

- Xoş gəlib, səfa gətiriblər! Ürəyiniz istədiyi yerdə əyləşə bilərsiniz. – deyib Zərifə divanın bir küncündə oturdu.

İlhamgil nənəsinin yanına gələn nəvələri ilə də mehribancasına görüşüb masa arxasında oturdular..

Gəlin Zərifənin göz-qaşla nəyə işarə etdiyini anlayıb:

- Siz əyləşin, söhbət edin, mən də çay dəmləyim.-deyib mətbəxə keçmək istədi.

İlham üzürxahlıqla dedi:

-Əziyyət çəkməyin, biz nahar edib, Şahnaz xanımın dəmlədiyi kəklikotu çayı da içib gəlmişik.

Şahnaz və Nazlı İlhamın dediklərini təsdiq etmələrinə

baxmayaraq gəlin və uşaqlar mətbəxə keçdilər.

Zərifə:

-A Gəlin, o albomu gətir, Kənanın uşaqlıq şəkillərinə də baxsınlar.

Nazlı:

-Zərifə xala, Kənanın cəbhədə yaralandığını eşitmişik. Uşaqlarla belə qərara gəldik ki, ayaqüstü, nahar fasiləsindən istifadə edib sənə baş çəkək. Necəsən?

Zərifə:

- Gələn ayaqlarınız ağrımasın, qızım. Çox sağ olun! O gün anan Ülkər də gəlmişdi. Sağ olsun qonşular, məni tez-tez yad edirlər, darıxmağa qoymurlar.

İlham:

-Zərifə xala, oğlunuz Kənan indi necədir, zəng zad edir?

Zərifə:

-Hə, arada zəng edir. Şükür, yaxşıdır. Yusifzadə nəslimizi yaşadan yeganə kişidir, mənim ondan başqa bir qohumum yoxdur.

Şahnaz zarafatla dilləndi:

- Zərifə xala, bəs nəvələrin, gəlin?

Zərifə:

- Onlar mənim qohumlarım deyil ki.

Şahnaz maraqla soruşdu:

- Bəs, nəyindirlər?

Zərifə:

- Onlar mənim canım, ciyərimdirlər. Mən onlarla nəfəs alıram. Allah gəlinin ata-anasına can sağlığı versin! Qızlarını əllərindən alıb özümə qız qazanmışam.

Nazlı:

- Anam deyirdi ki, ayağın bir balaca səni incidir. İndi necə, yaxşısan?

Zərifə:

- Yaxşıyam. Ayağımdakı sızıltı olmasa lap yaxşı olardım.

Gəlin ailə albomunu masanın üstünə qoydu. İlham birgözü Zərifədə, albomu vərəqləməyə başladı.

Şahnaz:

- Yəqin, yeldur. Dəvətükü şalla bürüsəniz köməyi dəyər.

Zərifə:

- Yel deyil, a qızım, sümüyüm sızıldayır. Cavan vaxtı hiss eləmirdim, qocaldıqca hava sərinləşəndə güllə yerləri qaşınır.

İlham təəccüblə soruşdu:

-Güllə yeri? Siz də I Qarabağ müharibəsində cəbhədə olmusuz?

Zərifə dərindən nəfəs alıb dedi:

-Yox, cəbhədə olmamışam. 93-də, Kəbəcərdəki kəndimizdən bizi qovub çıxaranda erməninin biri ayağımdan güllə ilə vurub.- *susur.*- Bilmək olmaz, bəlkə də, məni hamıdan tez vurmasaydılar, indi sizinlə qabaq-qabağa oturmazdım, hamı kimi məni də güllələyib öldürərdilər.

İlham:

- Necə oldu ki, güllə yarası aldınız?

Bu vaxt gəlin otağa daxil olub masanın üstünə çay qoyur.

Zərifə:

- Uzun söhbətdir, çayınız için. O qurumsaqları mərd oğullarımız gec də olsa, dədə-baba torpaqlarımızdan rədd etdilər. Çayınızı için, sizə başağrısı verməyim.

İlham:

-Bizim üçün çox maraqlı olar. Əgər, Sizə əziyyət deyilsə, qısaca da olsa danışın.

Zərifə:

- Bizi kənddən çıxarıb meşəyə qovdular. Biz az getmişdik ki, arxada bizi güllələməyə başladılar. Birinci mənim qoltuğumdan tutan cavanları vurdular. Ayağım yaralı idi deyə yerə yıxıldım, Kənan altımda qalmışdı. Hamını güllələyib getdilər. Qorxudan yerimdən tərpənmirdim. Kənan da qorxmuşdu, istədi ki, ağlasın. Əlimlə ağzını tutdum ki, səsi çıxmasın. Yanğın səsi, yanıq iyi hiss etdim, başımı azacıq qaldırıb kəndə tərəf boylandım. Evlərimizi yandırmışdılar, durmadan da atəş səsləri eşidilirdi. Yəqin ki, ermənilər kənddə qalan adamları güllələyirdilər. Bir müddət sakitcə uzanıqlı qaldıq. Birdən kimsə mənim paltarımdan tutub kənara çəkib, uşağı götürmək istədi. Ürək-göbəyim düşdü, elə bildim ki, ermənidir.

İlham maraqla soruşdu:

-Bəs Sizi kənara itəliyən kim idi?

Zərifə:

- Kolxozun anbardarı Qaradinməz idi. Adını dəqiq bilmirdim, kənddə adına "Qaradinməz" deyirdilər. Qonşu kənddən idi. Sürünə-sürünə hamını bircə bircə yoxladı, sağ qalan yox idi.

İlham soruşdu:

-Bəs, Qaradinməz sizi necə xilas etdi?

Zərifə:

-Əlində silah olan bir erməni də ölmüşdü. Deyəsən,

Aşot idi. Ermənilər onu da öldürmüşdülər, imanımı yandıra bilmərəm, bəlkə də təsadüfən vurmuşdular. Həmin ermənin silahını götürdü. Kürkünü soyundurub, məni onun üstünə uzandırdı. Ölən kəndçilərimizin boxçalarından çörək götürdü. Iki-üç arvad xeylağının belindən şallarını açıb, Kənanı belinə bağladı. Tək qolu ilə iki gün məni meşədə sürüdü. Allah ona rəhmət eləsin, öz ölümü ilə bizi xilas elədi.

İlham:

-Bəs Qaradinməzi kim öldürdü?

Zərifə:

- Əsgərlərimizi görəndə, - *kövrəlir,* - çığırıb onları səslədi. Əsgərlərin bizə tərəf gəldiklərini görüb sevindi. Dərindən nəfəs alıb, gülümsəyib oturdu. Heyf, onların gəlişinə qədər dözə bilmədi, elə gülərüzlə də keçindi. Çoxlu qan itirmişdi, bəlkə də, əsgərlərimizi görüb, sevindiyindən ürəyi partladı, Allah bilir. Bütün qohum əqrabamı məhv etdilər. O böyüklükdə kənddən ancaq Kənanla mən salamat çıxdıq.

İlham:

-Mənim bir yazıcı tanışım var. Qarabağdan, orada ermənilərin zülmünü görmüş insanların həyatından yazmaq istəyir. Olar, dediklərinizi ona nəql edim? Bəlkə, gərəyi oldu.

Nazlı:

- Zərifə xala, İlham həmin yazıçı tanışı ilə Qarabağın işqaldan azad olmuş ərazisinə səfər ediblər. Orada əsgərlərin şəklini də çəkib. Əsgərlərdən birini Kənana oxşatdım. Bax, Kənana necə oxşayır.

İlham telefondakı şəkilləri ona göstərdi. Sonra şəklin birini ekranboyu böyüdüb, telefonu Zərifəyə verdi.

Zərifə şəkilə diqqətlə baxa-baxa:

-Anan ölsün, oxşayır nədir. Kənanın özüdür də.- *(telefonu bağrına basır).*-Yaralanmağını bilirdim, yuxuda görmüşdüm. Hündür kolların arasında ayaqlarını qucaqlayıb məni səsləyirdi. Üç gün özümə gəlmədim.

İlham:

-Zərifə xala, oğlunuz olduğunu dəqiq bilmədik. Ona görə də, şəkli çap eləmədim. Sağlıq olsun, Kənanın şəklini iri formada çap elətdirib Sizə gətirəcəm.-deyib albomda Zərifə ilə Kənanın birgə şəklinə işarə etdi.- icazənizlə sizin bu fotonuzu da çəkərdim. Bəlkə, montaj elədim.

Zərifə dedi:

-Hansı xoşuna gəlsə, çəkə bilərsən.

İlham albomdan bir necə şəkil çəkib ayağa qalxdı.

-Nahar vaxtımız qurtarır, icazənizlə biz gedək, işə gecikməyək.

***

İlhamgil Zərifəyə can sağlığı arzulayıb, sağollaşıb otaqdan çıxdılar.

Həyət qapısına çatmamış ilk olaraq İlham Kənana tez sağalmağı arzulayıb gəlinlə sağollaşdı.

-Qızlar, siz tələsməyin, mən maşını geri döndərim.- deyib həyətdən çıxdı.

Nazlı da gəlinlə mehribancasına sağollaşdı. Şahnaz gəlini qucalayıb təsəlli verdi.

- Səbrli olun. Sağ olsun hökumətimiz, eşitdiyimizə görə yaralılara hər cür köməklik göstərəcək. Yoldaşının iki ayağı da yaralanıb?

Gəlin:

- Ayaqları yaralanmayıb ey, qolu və başının alın hissəsindən yaralanıb. Sağ əlinin baş barmağı qırılıb.

Şahnaz təəccübləndi:

- Bəs anası deyir ki, ayaqları yaralanıb.

Gəlin etinasız halda dilləndi:

- Anadır də, yuxuda elə görüb, biz də üstünü vurub onu narahat eləmək istəmirik. Özüm telefonla danışmışam. Qolunun gipsini açıblar, yaraları da yavaş-yavaş sağalır.

- Allah şəfasını versin!- deyib Nazlı ilə Şahnaz həyətdən çıxdılar.

***

İlham maşını iş yerinin həyətində dayandırdı. Şahnazla Nazlı maşından düşüb idarəyə daxil oldular. İlham maşını bir kənara çəkib saxladı. İdarənin həyətindəki oğlanlar İlhamı dövriyyəyə aldılar. Ona işğaldan azad olunan ərazilər barədə suallar verməyə başladılar.

İlham:

-Vallah, hara baxırsan adam dəhşətə gəlir. Müharibə kinolarında gördüyümüz bomba dağıntıları şükürlü imiş, heç olmasa, ara-sıra dağılmamış evlər, tikililər görmək olur. Ermənilər faşistlərdən də betər imişlər. Adamın gözünə ələ gələsi bir dənə də salamat tikili dəymir, hamısını ya söküb dağıdıblar, ya da yandırıblar.

I iş yoldaşı:

-İlham, deyirlər ki, müharibənin bitməsinə baxmayaraq, uduzmaqları ilə barışa bilməyən silahlı ermənilər hələ də həmin ərazilərdədir. Onlardan sənin rastına çıxan olmadı?

II iş yoldaşı:

- Sən də söz danışdın də, rastına çıxsaydı indi İlham burada sənlə üzbəsurat söhbət edə bilərdimi?

İlham:

-Yox, rastımıza çıxan olmadı. Amma bizə hər ehtimala qarşı ehtiyatlı olmağı məsləhət görürdülər.

I iş yoldaşı:

-*(II iş yoldaşına)* Eşitdin, ehtiyatlı olmağı məslət bildirdilər. Deməli, ərazidə silahlı ermənilərin olma ehtimalı hələ də var.

İlham:

-Uşaqlar, müharibədə hər şey ola bilər. Mən də eşitmişəm ki, meşədə azıb öz hərbi hissələrinindən ayrı düşən erməni əsgərləri olub. Onlar da ağ bayraq qaldırıb bizim əsgərlərə təslim olurlar.

I iş yoldaşı:

- Qəribədir, onlar necə əsgərdirlər ki, azıb öz hissələrindən ayrı düşə bilərlər? Bunlar hamısı ermənilərin fırıldağıdır, məqam gözləyirlərmiş ki, bizimkiləri arxadan vursunlar.

II iş yoldaşı:

- İlham düz deyir, Ermənistandan gələn əsgərin bizim meşədə azması təəccüblü deyil. O gün internetdə bir erməni əsirinin danışığına qulaq asırdım. Açıqca dedi ki, səfərbərliyə alıb, hara aparacaqları haqqında heç kim onları məlumatlandırmayıb.

I iş yoldaşı:

-Amma bu, onlara  torpalarımıza xain kimi girmələrinə haqq qazandırmır.

İlham:

-Düzünü gəzsəniz, mənim əsirlərlə söhbətim olmayıb. Ancaq, qərargahın yanında əsirləri apardıqlarını görmüşəm. Adam onlara həm nifrət edir, həm də biraz yazığı da gəlir.

I iş yoldaşı:-

-Nə tez 92-93-ü yaddan çıxartdın? Əsgərlərimiz bir yana, deyək ki, hərbiçi idilər. Bəs dinc əhalini, qoca, qadın-uşaq demədən güllələbaraban etmələri, Xocalı soyqırımı? Məgər, buna görə erməniyə rəhm etmək olar?

İlham:

-Mən səninlə razıyam, amma günah bizim onuncu sinifdə oxuyan oğlanlarımızdan fərqlənməyən sütül erməni uşağında deyil. Günah onu sarsaq erməni ideologiyası ilə tərbiyə edən böyüklərdədir. Nə isə, məni bağışlayın, zəng etməliyəm.

İlham iş yodaşlarından aralanıb iş otağına getdi.

***

Şahnazla Nazlı iş otağında Zərifənin gəlininin dediyini müzakirə edirlər.

Nazlı:

- Gəlinin dediklərini İlhama demək lazımdır.

Şahnaz:

- Bilmirəm necə deyim? Ürəyinə pis gələr, görmədin ki, necə həvəslə şəkli Zərifəyə göstərirdi.

Nazlı:

- Pis gəlsə də, gəlməsə də, demək lazımdır. Burada pis nə var ki? İlhamın xilas etdiyi əsgər Kənana oxşaya da bilər. Eşitməyibsən ki, bu dünyada hamının oxşarı var. Hamımızın şəxsiyyət vəsiqəsinin axırıncı sətirindəki sonuncu rəqəm oxşarlarımızın sayıdır də.

Şahnaz:

- Hələlik bu barədə ona heç nə demək lazım deyil. Özü Kənanın albomdakı şəkillərini çəkdi. Yəqin ki, bir-biri ilə tutuşduracaq.

İlhamın içəri daxil olduğunu görüb bir birinə baxıb susdular. Masa arxasında oturub Zərifəgildə çəkdiyi şəkilləri kompüterə köçürdükdən sonra İlham otaqdan çıxdı.

***

Kamo qoluqandallı axsaya-axsaya əsgərin nəzarəti ilə qərargaha aparılır...

O, ürəyində özünü qınayır :

-Gör, bir axmaq hərəkətimlə özümü nə zibilə saldım. Sənə deyən var idi Yeravandan tullana-tullana gəlib başqasının torpağına girəsən. Hələ bunlar sağ olsunlar, məni döyüb incitmirlər, bizimkilər olsaydı, indi dərimi boğzımdan çıxarmışdılar. İndi gəl bunları inandır, görüm necə inandıracaqsan ki, andıra qalmış formanı Vazgenin istəyi ilə geyinmişəm. Forma da, elə-belə forma olsa, dərd yarıdır. Zabit forması, moyor vəsiqəsi də üstünə tikilmiş. Xəbərim də olmayıb ki, zibili qoparıb atım.. Lənətə gələsən, Vazgen.

Kamo qərargaha daxil olur.

***

Müstəntiq masa arxasında oturub qovluqdakı sənədlərə baxır. Qapı döyülür.

Müstəntiq:

- Buyurun.

Kamo və əsgər otağa daxil olurlar. Əsgər başı ilə Kamoya zabitlə üzbəüz oturmağı əmr edir. Kamo işarə edilən stulda oturdu.

Müstəntiq əsgərə:

-Dəhlizdə gözlə.-dedi.

-Oldu.- deyib, əsgər otaqdan çıxdı.

Müstəntiq qovluqdan bir necə vərəq götürüb kənara qoyur. Araya sükut çökür.

Kamo fikirləşir:

-"Yəqin ki, mənim işimi başqa əsirlərin işindən ayiriblar. Dedim axı, mənim adımı heç bir hərbi hissənin siyahısında tapa bilməzlər. Əsirlərin də heç biri məni nə şəxsən tanıyır, nə də adımı eşidiblər".

Nəhayət müstəntiq qovluğu qatlayıb başını qaldırmadan dilləndi:

-Mayor Azaryan.

Kamo başını aşağı salır, dillənmir.

Müstəntiq:

- Əsir mayor Azaryan.

Kamo:

-Cinayətkar Kamo Azaryan. Mən özümü əsir hesab etmirəm. Azərbaycan Respublikasının dövlət sərhəddini pozmaqla cinayət törətmiş Ermənistan Respublikasının adi vətəndaşıyam. Mən hərbi əməliyyat zamanı əsir götürülməmişəm.

Müstəntiq:

- Adi Ermənistan vətəndaşı deyil, yüksək rütbəli hərbi zabiti. Nə fərqi var, cinayəti hərbi əməliyyatlar gedişatı zamanı törətmisiz.

Kamo:

-Sizə elə gəlir ki, heç bir fərqi yoxdur. Amma mənim üçün

böyük fərqi var. Nə olsun ki, erməniyəm, mənim də özümə görə qürurum, mənliyim var.

Müstəntiq:

-Azərbaycan torpaqlarını 30 ildir işğal altında saxlayan ermənінin qürur-mənlik haqqında mülahizəsi, ifrat dərəcədə gülüş doğurur. Özünüz özünüzdən sual edin- məgər, özünü qürurlu hesab edən, mənliyi olan şəxs başqasının torpağına göz dikə bilər?

Kamo qətiyyətlə dilləndi:

-Xeyr, özünü qürurlu şəxs hesab edən nəinki başqasının torpağına, hətta xırdaca bir əmlakına belə göz tikməz. Mənim sizin torpaqlarınızda gözüm olmayıb, ola da bilməz.

Müstəntiq:

-Amma, etiraf edirsiniz ki, Azərbaycan Respublikasının dövlət sərhəddini pozamaqla cinayət törətmisiz.

Kamo:

-Bəli, ağır xəstə olan əmim Vazgenə baş çəkməyə məcbur olmasaydım, Azərbaycan Respublikasının sərhəddini də pozmazdım.

Müstəntiq:

- Kamo Azaryan, Kəlbəcərin mülkü əhalisinə qarşı qanlı cinayət törətmiş Vazgenin bacısı, iddia etdiyiniz kimi, ananız haqqında hələlik dəqiq heç bir məlumat toplamaq mümkün olmayıb. Amma dəqiq məlumatdır ki, iki bacısı, onların da hərəsinin bir qızı olub. Vazgenqarışıq, heç biri də Ermənistanda yaşamayıb. Belə çıxır ki, Sizin dedikləriniz uydurmadır. Məsləhət görərdim ki, hansı xüsusi xidmət orqanının əməkdaşı olmağınızı özünüz etiraf edəsiniz. – deyib, əlinin altındakı düyməni basdı.

Nəzarətçi əsgər otağa daxil oldu.

-Aparın.- deyib, Kamoya işarə etdi.

Kamo ağır-ağır ayağa qalxdı. Fikrli halda qapıya tərəf addımladı. Qapının ağzında ayaq saxlayıb müstəntiqə baxdı.

Müstəntiq:

-Duz fikirləşirsiz, cənab Kamo Azaryan. İstintaqın səmərəli aparılmasında səmimi olsanız, yüngülləşdirici hal kimi nəzərə alına bilər.

Kamo:

- Dediniz ki, Vazgen haranın mülkü əhalisinə qarşı qanlı cinayət törədib?

Müstəntiq:

- Kəlbəcərin. Nəinki azərbaycanlılara divan tutub, hətta onu qane etməyən erməniləri də gizlincə aradan götüzdürüb. Yerli ermənilər də bunu təsdiq edə bilərlər.

Kamo soruşdu:

- Kəlbəcər buradan çox uzaqda yerləşir?

Müstəntiq:

- Çox uzaqdadır, şimalda.

Kamo:

- Heyf.- deyib otaqdan çıxdı.

***

İlham maşını qəzet köşkün bərabərliyində saxladı. Qəzetsatan Sonanın köşkun qabağındakı qəzetləri yığışdırıb köşkə daxil olduğunu gördü. O, cəld köşkün pəncərəsinə yaxınlaşdı.

İlham:

- Sona xala, axşamınız xeyir olsun! Mənim siqaretimdən varınızdır?

Sona:

-Axırıncını sənin üçün saxlamışam. Bircə dəqiqəliyinə səbr et, tapıb verəcəm.- deyib siqaret axtarır.- Şoğəribi hara qoymuşam?

İlham kioskun pəncərəsindəki jurnallara baxa-baxa soruşdu:

-Oğlunuz necədir, zəng-zad edir?

Sona:

- Çox sağ ol, yaxşıdır. Günaşırı zəng edir. Qızları imkan verir ki, düzəməlli danışaq. Bir kəlmə danışmamış kiçik nəvəm "ata" deyib, telefonu əlimdən alır.

İlham:

- Səbr edin, hər şey yaxşı olar. Əsas odur ki, sağ-salamatdır.

Sona:

- Amin, inşallah! Allah bütün əsgərlərimizin köməyi olsun! -siqareti pəncərənin qabağına qoyur.

İlham siqaretin pulunu verib maşına tərəf getmək istədi.

- İlham, a bala, eşitdim, sən də o tərəflərə gedibmişsən. Necədir orda vəziyyət?-deyə Sona soruşdu.

İlham:

- Yaxşıdır, Sona xala, hər şey yaxşıdır. Əsgərlərimiz ərazini minalardan təmizləyir. Tezliklə Siz də öz ata-baba yurdunuza qayıda biləcəksiniz!

Sona:

- Təki sən deyən olsun, ay oğul! Son günlər kəndimiz yuxumdan çıxmır. Düz 26 il 7 ay 12 gündür. Amma, hər yer dəqiqliyi ilə yadımdadır, doqqazına kimi.-İlhamı yolundan etməmək üçün.- Get, yolundan qalma.- dedi.

İlham Sonadan ayrılıb asta addımlarla maşına tərəf addımladı. Maşına çatmamış dayandı. Bir az fikirləşdikdən sonra Akifə zəng etdi. Telefonun o başında Akifin səsini eşidib hal-əhval tutdu.

İlham soruşdu:

-Akif müəllim, getdiyimiz qərargahla əlaqəniz var?

Akif:

- Hə, arada bir zəng edib, vəziyyətlə maraqlanıram. Sən narahat olma, bu dəfə də gedəsi olsam, səninlə gedəcəyik.

İlham:

-Xahiş edirəm ki, zəng edəndə yaralı əsgərin vəziyyti ilə də maraqlanın.

Akif:

- Əsgərdir də, indi yarası sağalmış olar. Zəng edəndə maraqlanaram.-könülsüz halda dilləndi.

İlham:

-Bilirsiz, o əsgər kim imiş, mənimlə işləyən qızın qonşusu. Şəklini görən kimi tanıdı. Evlərinə də getmişik, anası çox sevindi.

Bir anlığa araya sükut çökdü. Akif dillənmir.

İlham:

-Anası oğlunun yaralanmağını yuxuda da görübmüş.

Akif:

- İlham, sən mərd oğlansan. Amma, bir də o əsgərlə maraqlanma, məsləhət deyil.

İlham:

-Niyə, nə isə bir pis əməl törədib?-deyə təəcüblə soruşdu.

Akif:

- Mən sənə deyib qanını qaraltmaq istəmirdim...

İlham təəssüf hissi ilə Akifin danışığına qulaq asır:

- Axı anası öz oğlunu tanıdı.-deyə bikef halda dilləndi.

Akif:

- Yəqin ki, iş yoldaşın onu qonşusuna oxşadıb. Siz də şəkili anasına oğlu kimi təqdim edibsiz. Anadır də, sevindiyindən o da oğluna oxşada bilər.

İlham heyfsləndi:

-Heyf, nə pis oldu. Arvadın yanında günaha batdım.

Akif:

- Amma, sən heç heyfslənmə, insan ömrünü xilas edibsən. Günah səndə deyil ki, xilas etdiyin murdar erməni olub.- deyib, sağollaşaraq telefonu qapadı.

İlham bir müddət dilxor halda yolboyu var-gəl etdi.

-Gərək Nazlını xəbərdar edim ki, bir də qonşusu Zərifə arvadla şəkil haqqında danışmasın.-fikirləşib, maşına minib evlərinə yollandı.

***

İlham maşını həyətə salıb, mühərriki söndürdü. Bir az tərəddüd etdikdən sonra Nazlıya zəng etdi.

İlham Nazlının səsini eşidəcək:

-Axşamın xeyir. Nazlı, bu gün yaman tələsikliyə yol vermişik.-dedi.

Nazlı:

-Bilirəm nə demək istəyirsən.-Gəlin bizi yola salanda dedi ki, Kənan qolundan və başından yaralanıb, hazırda qospitaldadır, yanında da olub.

İlham:

-Bəs Zərifə xala deyirdi ki, oğlu ayağından yaralanıb.

Nazlı:

- Evdə oğlunun başından yaralanmağını deyib, anasını narahat etmək istəmirlər. Ona görə də gəlin Zərifə xalanın yanında heç nə deməyib. İşə qayıdandan sonra Şahnazla bu barədə sənə demək istədik, amma  deyib qanını qaraltmaq istəmədik.

İlham:

-Məni xəbərdar etsəydiniz, yaxşı olardı. Eybi yox, sabah danışarıq, gecən xeyirə! – deyib maşından düşdü.

***

İlham dəhlizin qapısını açan kimi atasının otağından televizorun səsini eşitdi:

-"Avropa Birliyinin bir neçə ölkəsində yeni koronavirus epedemiyasının şiddətləməsi ilə əlaqədar sərt karantin rejiminin tətbiqi nəzərdə tutulur."

O, açıq qapıdan icəri boylanıb divanda  oturub televizora baxan atası ilə salamlaşdı:

-Ata axşamın xeyir!- mətbəxə keçdi.

Səidə oğlunun kefsiz olduğunu hiss etdi.

- Ana qurban, niyə gec gəldin?- deyə, soruşdu.

İlham divar saatına baxdı:

- Gec deyil, ay ana. Komendant saatının başlanmasına hələ 15 dəqiqə var. Sənin üçün importnu maska axtarırdım. - deyib öz otağına keçdi.

Səidə:

-Maska maskadır də, neyləyirəm importnu maskanı. Onsuz da, işə getmirəm. Atana ver, taxsın.

İlham paltarını dəyişib, əl-üzünü yudu, otağından maskanı götürüb mətbəxə daxil oldu. Maskaları masanın üstünə düzdü.

İlham:

-Atam üçün də almışam.- (ağ rəngli maskalara işarə edir).- Bunlar atam üçündür. Ala-bəzəkləri sənin üçün almışam.

Səidə:

-Bu koronavurus da camaata bir bəla oldu. Xeyir-şərə də getmək olmur. Zirəddinin qardaşı oğlu şəhid olub, gedə bilmədik, tamam biyabır olduq.

İlham:

-Hansı Zirəddinin?

Səidə:

- Atanın dostu, Tovuzlu Zirəddinin.

İlham:

-Dəyəsən axı, şəhəidlərin yasını keçirməyə icazə verirlər. Siz də gedin.

Səidə dedi:

-Kimdir bizi buradan Tovuza getməyə icazə verən. Atan maraqlanıb, yaxın qohum-qonşu iştirak edə bilər, o da, 20-30 nəfər.

İlham şam yeməyini yeməyə başladı. Bir-iki tikə yedikdən sonra yadına nə isə düşür. Öz otağına gedir.

Səidə:

- Otur yeməyini ye, soyutma. Nə olub, gözümə bikef dəyirsən?

İlham əlində bir necə foto qayıdır. Fotoları kənara qoyub, gözaltı onlara baxaraq yeməyini yeyir. Səidə öz işi ilə məşğul olsa da, oğlunun hərəkətlərinə də göz qoyurdu.

İlham:

- Ana, səndən bir şey soruşmaq istəyirəm.

Səidə:

- Buyur, eşidirəm.

İlham:

-Ay ana, ana öz övladını kiminlə isə səhv sala bilər.

Səidə:

- Bu haradan ağlına gəldi?- deyə təəcüblə soruşdu.

İlham dedi:

-Sözdü də, soruşuram.

Səidə:

- Yox. Heç vaxt. - fikirləşir, - Tanımaya bilər, amma, səhv sala bilməz.

İlham:

-Məsələn, ana oğlunun şəklinə baxsa, başqası ilə səhv sala bilər?

Səidə:

- Baxır, şəkil necə alınıb, oxşada bilər. Ancaq, səhv salmağına inanmıram.

İlham:

-Öz oğluna oxşarlığı olsa da?

Səidə:

- Ana ürəyini İlahi elə yaradıb ki, övladını səhv salma ehtimalı çox azdır. Analar olub ki, ikinci dünya müharibəsi zamanı oğlunun yaralanmasını dəqiqliyi ilə biliblər.

İlham şəkilləri ona göstərir. Səidə şəkilləri əlinə alıb diqqətlə baxır.

İlham:

-Bax, bunlar eyni adamdırmı?

Səidə:

-Dəqiq deməyə çətinlik çəkirəm. Amma bir birinə çox oxşayırlar. Güman ki, qohumdurlar, bəlkə də əmioğludurlar. – deyib şəkilləri İlhama qaytardı.

İlham:

-Akif müəllimlə xilas etdiyimiz əsgərin şəklini Nazlı Kəlbəcərli qonşusunun oğluna oxşatdı. Bu gün onlara getmişdik. Arvad şəkili görən kimi dedi ki, oğludur.

Səidə:

- Deməli, oğludur. Ana ürəyi aldanmaz.

İlham:

-Axı, bunların bir biri ilə qohumluğu çatmır.

Səidə:

-Ver şəkilləri, bir də baxım.- Şəkillərə diqqətlə baxır.- Deyəsən, ayrı-ayrı adamlardı. Sizin xilas etdiyiniz əsgər şəhər adamına oxşayır. Bu biri əziyyətlər görmüş adam təsəvvüründədir.

İlham:

-Biz xilas etdiyimiz erməni zabiti imiş.

Səidə şəkillərə baxa-baxa stulda oturur.

- Erməni zabiti? Sifət quruluşları da çox oxşayır. Dedin Zərifə arvad haralıdır? – deyə, soruşdu.

İlham:

-Kəlbəcərli.

Səidə yenidən şəkillərə diqqətlə baxıb fikrə gedir.

- Qardaşa da oxşayırlar. Nə bilmək olar, bəlkə, ərinin erməni arvadı da olub. Hər şey ola bilər. -deyib, şəkilləri ehmalca masanın üstünə qoydu.

İlham şəkilləri götürüb öz otağına keçdi. Bir az fikirləşəndən sonra Akifin nömrəsini yığıb zəng etdi.

Akiflə yenidən salamlaşdıqdan sonra:

-Akif müəllim, etiraz etmirsinizsə, sabah zəngləşib görüşək. Şəkillərə Siz də baxın. Mənə elə gəlir ki, şəkil məsələsi çox müəmmalıdır. Bəlkə Zərifə xala ilə Sizi tanış edim. Ola bilər ki, ərinin erməni arvadı da olmuş olsun?-soruşdu.

Akif:

- Bax, bu ağıla batan söhbətdir. O vaxtlar haxçıq saxlayan çox olub. Zərifədən oğlunun soyadını, harada qulluq etdiyini soruşmadın?

İlham təəssüflə dedi:

-Yox soruşmadım, amma dedi ki, oğlu Kəlbəcər istiqamətindəki döyüşlərdə vuruşub. - deyib fikirləşdi.- Bir də, dedi ki, oğlu Yusifzadə nəslindən sağ qalan yeganə kişidir. Belə çıxır ki, soy adı Yusifzadədir, Kənan Yusifzadə. Məsləhətdirsə, zəng edim, dəqiqləşdirim.

Akif:

-Narahat etmə, mən özüm bir şey fikirləşərəm. Sabah nahar vaxtı zəng et, görüşək.

İlham:

-Dünyagörmüş adamsınız,..... Olsun, Sizə zəng edəcəm. – deyib telefonu qapayaraq xəyala daldı.

***

Çay evinin qarşısı. İlham maşında oturub Akifi gözləyir. O, arxanı göstərən güzgüdə maşının arxasında taksi dayandığını gördü. Taksidən düşüb ona tərəf addımlan Akifi maskalı görüb İlham da cəld maskasını taxıb maşından düşdü.

İlham:

-Salam, Akif müəllim!

Akif:

- Ay əleykum salam, necəsən?

İlham:

-Çox sağ olun, yaxşıyam!

Akif İlhamın qoltuğundakı qovluğa işarə edib:

- Qoltuğundakı nədir?-deyə, soruşdu.

İlham:

-Yaralı əsgərin, Zərifə və oğlu Kənanın şəkilləridir. Çay evində masa sifariş etmişəm. İşəridə çay içə-içə şəkillərə baxa bilərsiz.

Onlar söhbər edə-edə çay evinə daxil olurlar. Çayçı onları görcək, köməkçisini dümsəklədi.

- Akif müəllimdir, cəld onlar üçün kəkotu çayı dəmlə, bir az da mayçiçəyi əlavə et.-dedi.

Akif çay evinə daxil olan kimi gözü ilə çayçını axtardı.

-Salam, necəsiz? Qonaq istəmirsiz?-deyib, onunla salamlaşdı.

Çayçı:

- Akif müəllim, xoş gəlmisiz! Şəhərimizin ziyalısını qəbul etmək xoşdur, bizim üçün. Buyurun, ürəyiniz istədiyiniz yerdə əyləşin.

Akiflə İlham masa arxasında oturdular. İlham qoltuğundakı qovluğu açıb şəkilləri Akifə göstərməyə başladı.

-Bu Zərifə xalanın şəklidir. Bu da, nəvələri ilə birlikdə.

Akif Zərifənin şəklinə diqqətlə baxdığı vaxt çayçı masaya yaxınlaşdı.

Çayçı:

- Akif müəllim, Sizin yazınızı oxudum. Vallah, adamın ürəyi dağa dönür! Halal olsun əsgərlərimizə, erməniləri qovdular, indi də mərdimazarların basdırdıqları minaları qazıb çıxarırlar. Siz də sağ olun ki, onların mərdliyi haqqında bizlərə məlumat verirsiniz. Çayınızı həmişəki kimi dəmlətdirim?-soruşdu.

Akif:

- Hə, zəhmət olmasa.

Çayçı:

- Beş dəqiqəyə hazır olacaq!-deyib getdi.

Akif:

- Zərifənin oğlu ilə birlikdə olduğu şəkili ver, baxım.

İlham:

-Buyurun, bu da Zərifənin oğlu Kənanla birlikdə olan şəkili.

Akif diqqətlə şəkili baxır.

İlham başqa şəkili də onun qarşısına qoyur:

-Bu da Kənanın evdə, çəhbədəki şəkilləri.

***

Çay dəmlənib hazır olan kimi çayçı lazım olanları siniyə yığaraq masaya yaxınlaşdı. Sinidəki çaydan, stakan-nəlbəki, qənd və mürəbbəni masanın üstünə düzdükdən sonra Akif mürəbbəyə diqqətlə baxdı.

-Bunu apara bilərsən.-deyə, Akif mürəbbəyə işarə etdi.

Çayçı mürəbbə qabını əlinə alıb iylədi.

- Akif müəllim, mürəbbənin çay qiymətinə aidiyyatı yoxdur. Şəxsən Sizin üçündür! Özüm istifadə etmək üçün

evdən gətirmişəm.  Əla çiyələk mürəbbəsidir.-deyib, mürəbbə qabını yenidən masanın üstünə qoydu.

Akif  gülümsədi:

- Çox sağ ol, elə çiyələk mürəbbəsidir deyə lazım deyil. Mənə ziyan edir.

Çayçı soruşdu:

- Çiyələk yeyəndən sonra boğazınız ağrıyır?

Akif:

- Hə, çiyələk yeyən günü axşama qədər boğazım qaşınır. Doqrudur, başqa təsiri olmur.

Çayçı gülümsədi:

- Ağlınız istixana çiyələyinə getməsin, min cür dərman vururlar. Bunu anama görə Kəpəzin ətəyindən, kolluqların arasından yığmışam, çəkinmədən yeyə bilərsiz. Əgər, ziyan eləsə,  nə qədər ki, mən bu çayçıda işləyirəm, pulsuz-parasız istədiyiniz vaxt Sizə qulluq etməyimə söz verirəm.- deyib İlhama göz vurdu.

Hər üçü gülümsədi.

Akif:

- Yaxşı, sənin kolluqlar arasından yığdığın çiyələyi də təcrübədən keçirərik.

-Halal xoşunuz olsun!- deyib çayçı getmək istərkən nəyi isə xatırlayıb ayaq saxladı.

Çayçı:

- Akif müəllim, kolluq demişkən. Uşaqlar deyirlər ki, kolluqdakı yaralı əsgəri bizimkilər avtoş İlhamın sayəsində xilas ediblər.

Akif:

- Düz deyirlər. O uzaqlıda kolluqda mən yaralı əsgəri görə bilməzdim ki.

- Afərin, ona! Avtoş olsa da, qorxmaz oğlan imiş. – deyib getdi.

Akiflə İlham bir-birinə baxırlar. İlham stəkanlara çay süzməyə, Akif də qarşısındakı şəkillərə diqqətlə baxmağa başladılar.

Akif:

- O erməni zabitinin şəklini də ver, baxım. Görək Zərifə ilə oxşarlığı var, ya yox.

İlham:

-Onun da şəklini vermişəm.

Akif maraqla şəkillər baxıb soruşur:

- Hansıdır?

İlham:

- Kənanın cəhbədəki şəkillərinə diqqətlə baxın. Hansı Zərifəyə oxşamırsa, Siz deyəndir.

Akif:

- Əslinə qalsa, Kənan da anasına oxşamır. Yəqin ki, atası tərəfə çəkib.

İlham:

-Yaralı əsgəri Zərifə oğlu Kənana oxşadıb.- deyib, Kamonun şəkilini ona göstərir.

AKİF:

- Deyəsən özün xilas edibsən deyə, “erməni zabiti”ni dilinə gətirmək istəmirsən.

İlham:

- “Erməni” deməyə həqiqətən də dilim gəlmir. Ona görə

yox ki, xilas olunmasında mənim də köməyim olub. Anam deyir ki, ana başqasını öz övladına oxşada bilər, amma, övladını başqası ilə səhv sala bilməz. Siz də əsgərlə Kənanı seçə bilmədiniz. Burada nə isə müəmmalı məsələ var.

Akif şəkilləri yenidən diqqətlə nəzərdən keçirir.

Akif:

-Həqiqətən də, bir-birinə lap çox oxşayırlar.

İlham:

-Amma, Zərifənin dediyinə görə, oğuldan-qızdan tək bir övladı var.

Akif:

- Çox güman ki, axşam dediyim vəziyyətdir.

İlham:

-Hansı vəziyyəti nəzərdə tutursuz?-deyə, soruşdu.

Akif:

-Məni də bağışla, o vaxtlar bizimkilərdən bir balaca imkanı olan kişilər gizlincə erməni arvadları da saxlayırdılar. Ən çox da, “kirvə” adıyla. Ola bilər ki, Zərifənin əri də o məsələ, haxçığı var imiş. Sən o barədə Zərifədən soruşmadın?

İlham:

-Siz nə danışırsız, birincisi, soruşmağa lüzum olmayıb. İkincisi də, lüzüm olsaydı belə, mən soruşa bilməzdim, ayıb olardı, utanardım.

Akif bir müddət fikirləşdi.

-Zərifə ilə açıq söhbət etmək lazımdır. Telefon nömrəsini bilirsən?- deyə, soruşdu.

İlham:

-Hə, telefonumun yaddaşına yazmışam. Sizin haqqınızda da ona demişəm. Demişəm ki, yazıçısız. Kəlbəcərdə ermənilərin etdiyi zülmü Sizə də danışsın.

Akif:

- İlham, səndən nə gizlədim, dünən səninlə danışandan sonra qərargah rəisinə zəng etdim. Rəis bildirdi ki, erməni zabit formasında olub, cibindən də mayor vəsiqəsi çıxıb. Amma, o, israrla bildirir ki, zabit formasını təsadüfən geyinib, Azərbaycana qarşı da heç bir hərbi əməliyyatlarda iştirak etməyib. Bütün kəşfiyyat araşdırılmalarına baxmayaraq, həqiqətən də heç bir erməni silahlı birləşməsində onun adına rast gəlinmir.

İlham:

-Akif müəllim, Siz özünüz də əmin oldunuz ki, yaralı əsgərlə Zərifənin oğlu hədsiz dərəcədə bir birinə oxşayırlar. Mənə də elə gəlir ki, onlar yaxın qohimdurlar. Sizin dediyiniz kimi, ogey qardaş da ola bilərlər. Əminəm ki, onlar ən azından əmioğludurlar. Hər halda yaralı əsgərdə Azərbaycanlı qanı olmamış deyil.

Akif:

-Qan dedin yadıma düşdü. Bu gün həm Kənandan, həm də erməni zabitindən qan analizi götürülməlidir. Amma biz səninlə qan analizinin cavabını gözləyə bilmərik. Erməni za....- deyib, İlhamın üzünə baxdı, mülayim şəkildə sözünə davam etdi.-Yaralı əsgəri xilas etdiyin kimi, onun həqiqətən də kim olduğunu müəyyənləşdirməyə köməklik etməliyik.

İlham həvəslə soruşdu:

-Təklifiniz nədir?

-Qərargah rəisi xahiş etdi ki, Zərifə ilə bir yazıçı kimi görüşüb, söhbət edim. Amma şəkillərə baxandan sonra, fikirləşirəm ki, Zərifə ilə təcili görüşmək lazımdır. Bu işdə nə isə əmmalı məsələ var, kələfin ucu Zərifədə olacaq. Zəng et,

razı olsa, birbaşa onlara gedək. Mən də qərargaha zəng edim, bəlkə nəyi isə aydınlaşdıra biliblər. – deyib çay pulunu ödəmək üçün çayçını səslədi.

***

Zərifəgildə Akiflə İlhamı mehribancasına qarşıladılar. İlham Akifi yazıçı-ssenarist kimi təqdim edərək gəlişlərinin məqsədini qısaca olaraq bir daha Zərifəyə bildirdi.

Qısa tanışlıqdan sonra Akif  ilk növbədə Zərifənin oğlu Kənanın sağlamlıq vəziyyəti ilə maraqlandı.

Zəfifə:

-Şükür, lap yaxşıdır. Allah şəhidlərimizə rəhmət eləsin, yaralılarımıza şəfa, əsgərlərimizə can sağlığı versin. –dedi.

-Amin, amin.-deyib, Akif mətləbə keçdi.-Zərəfə xanım, hamıya yaxşı məlumdur ki, Qarabağ məsələsində sadə erməni xalqının bir elə də günahı yoxdur. Əsas günah, cinayət törədən başıboş erməni rəhbərliyi, onların faşistyönlü qabaqda gedənlərindədir. Mən 1993-cü illərdən əvvəl Qarabağda yaşayan azərbaycanlı və erməni əhalisinin bir birinə olan münasibət haqqında əsər üzərində işləyirəm. Bilmək istərdim ki, həmin vaxtlar Sizin yaşadığınız ərazidə bizimkilərlə ermənilərin münasibətləri necə olub, xatırlamırsız?

-Umu-küsü hər yerdə olub, olacaq da. Hər ailədə də olur. Sovetin son vaxtlarına qədər ermənilərlə pis yaşamırdıq. Düzdür, bizim kənddə erməni yaşamırdı, amma, həyətyanı sahələrimizin bellənməsi, hörgü işləri, nə başını ağrıdım, ağır işləri qonşu kənddə yaşayan ermənilərə gördürərdik. Bir-birimizin xeyir-şərində də iştirak edərdik. Ermənilər həmişə bizə halqış oxuyardılar ki, uşaqlarına çörəyi bizim kəndimizin hesabına qazanırlar. Amma o xallı gələndən sonra vəziyyət

dəyişdi.- deyib, Zeynəb susdu.

Akif gülümsəyərək soruşdu:

-Qarbacovu nəzərdə tutursuz?

Zərifə:

-Hə, o gələndən sonra vəziyyət yavaş-yavaş dəyişməyə başladı, pisliyə doğru.

Akif:

-Rəhmətlik ərinizin ermənilərə münasibəti necə idi?

-Hamı necə, rəhmətlik də o cür.-Zərifə dedi.

-Yəqin ki, evinə gedib-gəldiyi erməni dostları olmamış olmazdı.-Akif özünü biganə kimi göstərib, dəftərçəsində nəyi isə qeyd edə-edə dedyinə Zərifənin necə reaksiya verdiyini izlədi.

Zərifə:

-Xeyirdə-şərdə gedib gələrdi, amma hansısa erməni ilə ailəvi get-gəlişimiz yox idi.

-Qardaşlarından, qayınlarından da ermənilərə ailəvi dostluq edən yox idi?-deyə, Akif maraqla soruşdu.

-Rəhmətlik də, mən də evin tək övladı olmuşuq. Nə onun, nə də mənim qardaş-bacımız olmayıb.-deyə, Zərifə təssüflə cavab verdi.-Amma kəndin bir necə imkanlı kişisinin qonşu kəndlərdə arvad saxlamağını hamı bilirdi.

Akif soruşdu:

-Məsələn, kim erməni arvadı saxlayırdı?

Zərifə:

-Kəndin zammağı. İmanımı yandıra bilmərəm, arvadlar deyirdilər ki, ferma müdiri iki erməni arvadı saxlayırdı, ayrı-ayrı kənddə. Xəlvətcə gedib-gələnlər də var idi. Bizim çox kişiləri erməni arvadları yoldan çıxarırdı.

Akif gülümsədi:

-Bəlkə, rəhmətlik də xəlvət gedib-gələnlərdən olub?

Zərifə qətiyyətlə dilləndi:

-Ola bilməz, gedib-gələnlər əvvəl-əvvəl, kirvəlikdən başlayırdılar. Sonra məlum olurdu ki, kirvəlik bəhanə imiş. Rəhmətliyin ermənilərlə kirvə olanlardan xoşu gəlməzdi.

-Bəs Kənanın kirvəsi kim olub?-deyə, Akif soruşdu.

Zərifə bir müddət dillənmədi.

Akif özlüyündə:

“Erməni ilə kirvə olandan xoşu gəlməyib. Amma, öz oğluna ermənini kirvə seçib.”, fikirləşdi. Zərifənin cavab vermədiyini görüb, söhbəti hansı formada davam etdirəcəyini düşündü.

Bir qurtum çay içəndən sonra Zərifə dərindən nəfəs aldı:

-Rəhmətliyin sünnət toyu edənlərdən də xoşu gəlməzdi. Bizim oğlanlarımızın kirvəsi olmayıb, hər ikisini xəstəxanada həkim sünnət edib.-deyib, gözü yaşardı.

Araya sakitlik çökdü. Zərifə yaşarmış gözünə su vurmaq üçün mətbəxə keçdi.

Akif asta səslə İlhama dedi:

-Bəs deyirdin ki, bunun bircə oğlu var.

İlham:

-Özü dedi ki, Kənan Yusifzadə nəslindən sağ qalan yeganə kişidir. Bəlkə, o biri oğlu müharibədə şəhid olub.

Zərifə otağa qayıdıb yerində oturandan sonra Akif dilləndi.

-Zərifə xanım, bura gəlməmişdən əvvəl İlham dedi ki, bircə oğlunuz var. Amma, Siz deyirsiz ki, oğlanlarınızın ikisini də həkim sünnət edib.

- Oğlanlarım əkiz idilər. -deyib, Zeynəb susdu, biraz gözləri yol çəkdikdən sonra sözünə davam etdi.- Həmin gün Kənan ağladığı üçün özümlə aparmalı oldum. Kərəmlə Gözəl hələ də yuxumdan çıxmırlar.

Akif ipücü tapmış kimi sevindi, amma, ciddi görkəm aldı:

-Dərdinizi təzələmək istəməzdik, ancaq uşaqlarınız məni çox maraqlandırdı. Sizə çox da ağrılı deyilsə, onların taleyi haqqında qısaca da olsa danışmağınızı xahiş edirəm. Yox, əgər ovladlarınız haqqında danışmaq çətindirsə, Sizə münasib vaxtı gələrik, danışarsız.

Zərifə dərindən ah çəkdi:

-Talesiz balalarımın taleyi haqqında danışmaq mənim üçün ağırdır. Amma, danışıb ürəyimi bolaşalda bilərəm. -deyib, gözü yol çəkdi.-Qaçqınlığımızın ilk illərində başıma gələnləri çoxlarına nağıl etmişəm. Amma, çoxdandır ki, bu barədə heç kəsə bir kəlmə də olsun söyləyib, ürəyimi boşaltmamışam.

İlham maraqla soruşdu:

-Uşaqlarınız haqqında niyə heç kəsə danışmaq istəmirsiz? Axırıncı dəfə onlar haqqında kimə danışmısız?

Zeynəb:

-Axırıncı dəfə Kənanın sinif rəhbərinə danışmışam. Kənan 6-cı sinifdə oxuyanda dəcəllik etmişdi. Sinif rəhbəri cavan gəlin idi. Bizə gəlmişdi. Oturub xeyli söhbət etdik. Qaçqın olduğumu bilib, mənim taleyimlə maraqlandı, mən də başıma gələnləri söyləməyə başladım. Elə ki dedim, ermənilər hamını arxadan atəşə tutdu, müəllimənin rəngi-ruhu qaçdı. Öz dərdim yalan oldu, onun üz-gözünə su vurub, birtəhər ayıltdım. Odu-budur, heç kəsə danışmıram. Düzünü bilmək istəsəniz, dərdimi

heç sizlərə də danışıb qanınızı qaraltmaq istəməzdim.

Akif dedi:

-Qanımız 30 ildir ki, Qarabağa görə, indi də şəhid və yaralılarımıza görə onsuz da qaradır. Allahın bu gününə şükür, bütün itgilərimizə baxmayaraq ana Vətənimiz düşmən tapdağından azad olunur. Söyləyin, nə qədər ağrılı olsa da, uşaqlarınızın taleyi yaradıcı insan kimi mənə maraqlıdır.

Zərifə 1993-cü ilin yaz ayında Kəlbəcərdən ermənilər tərəfindən qovulmasını, başına gələn müsibətləri lent yazısı kimi danışmağa başladı.  O, hadisələri söyləyərkən üz mimikasının dəyişməməsi Akifin nəzərindən qaçmadı.

Qaradinməzin ölümünü Zərifə elə canlı təsvir etdi ki, hamının gözü yaşardı.

Akif bir daha Zərifəyə can sağlığı arzulayıb ayağa qalxdı.

-Bağışlayın, Sizi də narahat etdik. Əgər etiraz etməsəydiniz, bu movzuda hekayəmi deyim, ssenarimi deyim, yazacağım yazı ilə əlaqədar Sizi bir də narahat edərdim.

Zərifə dedi:

-Heç bir narahatçılığı yoxdur. İstədiyiniz vaxtı qonaq gələ bilərsiz.

-Çox sağ olun!-deyib Akif qapıya tərəf getdi.

O, qapının ağzında ayaq saxladı.

-Tamam yadımdan çıxıb.-İlhama tərəf dönüb.-O şəkili ver.- dedi.

İlham cəlb qovluqdan yaralı əsgərin şəklini çıxarıb ona verdi.

-Zərifə xanım, yəqin ki, İlham şəkili Sizə göstərməmiş olmazdı. Sizi görəndən sonra mənə qəribə gəldi ki, oğlunuz heç siz tərəfə oxşamır.- Akif şəkili Zərifəyə uzatdı.- Allah

şəfasını versin, yəqin  atası tərəfə çəkib. -deyib, gülümsədi.

Zərifə şəkili Akifdən aldı:

-Heç atasına da oxşamır, amma elə bil ki, rəhmətlik qaynatamın cavanlığıdır.-deyib şəkili İlhama qaytardı.

***

İlham maşını yerindən tərpədən kimi dönüb Akifdən soruşdu.

-Akif müəllim,  şəkili nə məqsədlə bir daha Zərifə xalaya göstərdiniz?

Akif fikirləşmədən suala sualla cavab verdi:

-Zərifənin yaralı əsgəri öz oğlu kimi qəbul etməsinə əmin olmalıydım, ya yox?

Biraz fikirləşib qərargah rəisinə zəng etdi.

***

Kamo əsirlərin kazarmasında uzanıb xəyala dalmışdı. Növbəti dəfə əsirlərin dəyişdirilməsinə də tamam ümidini itirmişdi.

-Əsir Azaryan Kamo. Müstəntiqin yanına.

O, öz adını eşidəcək ayağa qalxdı. Qapının ağzında qollarına qandal vurulduqdan sonra həmişəki qaydada əsgərin qabağınca dindirilmə otağına getmək üçün qərargaha tərəf addımladı.

Tibb-sanitar bölməsinin yanına çatanda əsgər əmr etdi:

- Dayan.

Kamo dayandı. Əsgər əlindəki avtomatla onun sanitar bölməyə daxil olmasını əmr etdi. Icəri daxil olan kimi, Kamoya üzərində “dəllək” yazılmış otağa daxil olmağı işarə edir.

Dəllək onun saçlarını səliqəyə salıb, üzünü təraş etdikdən sonra istintaq otağına aparıldı.

## KAMO-KƏRƏM

Otağa daxil olan kimi əsgər Kamoya oturmağı işarə etdi. O, sakitcə onun üçün nəzərdə tutulmuş masanın arxasında oturdu.

KAMO fikirləşdi:

-Üzümün qırxılması, saçlarının səliqəyə salınmasından belə güman etmək olar ki, bu dəfə başqa müstəntiq dindirəcək.

Çox keçmədi ki, qapı açıldı, çiynində fotokamera olan hündürboylu mülkü şəxs icəri daxil oldu. Onun müstəntiq olduğunu zənn edib Kamo ayağa qaıxdı. Həmin mülkü şəxs fotoaparatla müxtəlif istiqamətdən Kamonun bir neçə dəfə şəklini çəkib dinməzcə otaqdan çıxdı.

Soyuq dağ havası olmasına baxmağaraq kiçik otaq isti idi. Saxlanıldığı kazarma qızdırılmadığına görə əsirlərə verilmiş əlavə alt paltarı onu narahat edirdi. Dindirilmə uzun çəksə, tərləyib xəstələnə bilərdi.

Kamo başqa əsirlərdən daha çox dindirilməyə aparılması ilə fərqlənirdi. Hər dəfə dindirilmədən sonra kazarmaya qayıdanda cavan əsirlər onu sorğu-suala tutur, əsirlərin dəyişdirilməsi barədə hansısa məlumat əldə etmək istəyirdilər. Onların hər biri valideynləri, qohumları tərəfindən dəyişdiriləcəyinə böyük ümid edirdi.

Təkcə Kamonun belə ümidi yox idi. Doğrudur, ona müstəntiq və nəzarətçilər tərəfindən xoşagəlməz hərəkətlər olmamışdı. Amma, azadlıq normal insan kimi yaşamaq gözəl şey imiş.

Onun bu vəziyyətə düşməsinə görə əmisi Vazgeni həmişə lənətləyirdi. Ancaq əsirlərin dəyişdirilməsi söhbəti ortaya düşəndə Vazgenin ölməsinə təəsüflənirdi.

Son günlər yatağa üzanan kimi Vazgenlə sonuncu görüşü yadına düşürdü. Onu narahat edən məqamlardan ən başlıcası isə, Vazgenin ölüm ayağında tapancadan atəş açması idi.

Mühafizəci zabitin versiyasına görə Vozgen ağrılara dözməyib, özünü öldürmək üçün atəş açmışdır. Kamo atəşin ona açıldığını zənn etsə də bu versiyaya inanmaqdan başqa yolu yox idi. Əslinə qalsa, meşədə gizləndiyi zaman da Vazgenin ona atəş açdığını zənn etdiyinin fərqinə varmamışdı. Bir-iki dəfə bu barədə fikirləşsə də, qorxudan zənn etdiyi qərarına gəlmişdir.

Amma son günlər bu barədə çox fikirləşirdi. Umumiyyətlə, o, heç vaxt öz keçmişini xatırlamaq istəməmişdir. Məhz indi, illərlə üzünü görmədiyi dayısı Vazgeni çıxmaq şərti ilə heç bir qohum əqrabasının olmamasını ürək ağrısı ilə qarşılamağa başlamışdı.

O, pəncərədən çölə baxdı. Dəmir barmaqlıqla birgə bərkidilmiş pəncərədən bu yerlərin gözəl təbiəti görünürdü. İstədi ki, əsgərdən pəncərəni açmağı xahiş etsin. Deyəsən, əsgərin özünə də isti təsir etmişdi. Əsgərin əl atıb kiçik pəncərəni açdığını görüb dillənmədi.

Kinolarda əsirlərlə sərt davranış səhnələrini görmuşdu. Kameradakı əsirlərin bəzilərindən onlarla sərt rəftar etdildiyini də eşitmişdi. Amma, hələlik ona qarşı heç bir sərt münasibəti görməmişdi. Düzdür, ayağındakı  gips söküldükdən sonra təzə müstəntiq ona izahatı düzgün yazmamağı irad tutub ustünə

çığırmışdı. Ancaq o, bunu normal qarşılamışdı. Çünki günahını dərk edirdi. Nəinki heç bir Azərbaycanlıya atəş açmamış, umumiyyətlə, əlinə silah almaması onun günahkar olamamasına dəlalət etmirdi. Dərk edirdi ki, ən azından qanunsuz olaraq, başqa dövlətin ərazisinə girdiyi üçün günahkardır.

Onu dindirən müstəntiqlərə də heç bir döyüşdə iştirak etmədiyini deyib, xəstə dayısına baş çəkmək xatirinə qanunsuz olaraq Azərbaycan ərazisinə daxil olmaq günahını etiraf edirdi.

***

Bir müddətdən sonra otağın qapısı yenidən açıldı. Mülkü geyimdə, qoltuğunda qovluq olan cılız boylu mülkü şəxs içəri daxil oldu. Əsgər həmin adamı görən kimi hərbi salam verib, məruzə etmək istədi. Müstəntiq əli ilə "lazım deyil" işarəsi verdikdən sonra əsgər otaqdan çıxdı.

Kamoya aydın oldu ki, bu cılız görkəmli adam müstəntiqdir. Odur ki, istər-istəməz "yarısı boyda" olan adamın qarşısında dik dayandı.

Müstəntiq qovluğu masanın üstünə qoyub, əyləşdi:

-Əsir Kamo Azarovic Azaryan. –deyib qovluğun üz qabığını çevirdi.

Kamo:

-Bəli, əsir Kamo Azarovic Azaryan.

- Əyləşin.- saymazyana, əli ilə işarə edib qovluğu vərəqləməyə başladı.

Kamo təzəcə oturmuşdu ki, müstəntiq əsgəri səslədi. Əsgər işəri daxil olanda başını qaldırmadan:

- Əllərini açın-dedi.

Əsgər Kamonun qandalını açıb otağı tərk etdi.

Adətən, dindirmə zamanı qandalları izahat yazmaq lazım olanda açardılar. Sorqu-suala başlamamışdan əvvəl qolundakı qandalın açılmasına göstəriş verilməsi, müstəntiqin ona "əyləşin" deməsi Kamoda böyük ümid yaratdı.

- Bəlkə döyüşlərdə iştirak etməməyimi dəqiqləşdiriblər. Deyirlər, Azərbaycanlılar "kişi sözünə" inanırlar. Gərək bu dəfə and içəm ki, "kişi kimi düz deyirəm-heç bir döyüşdə, hətta, hərbi hissədə olmamışam". Axı mən nə qələt edib başqasının ərazisinə girmişəm? Ola bilər ki, mənə sənəd düzəltmək üçün şəklimi də çəkdilər. - deyə ürəyində fikirləşib başını qaşıdı. Və tez də əlini və başını aşağı saldı.

Müstəntiq başını qaldlrmadan cibindən siqaret və alışqan çıxararaq masanın tən ortasına qoydu.

- Mayor Azaryan, siqaret çəkənsiniz?

Müstəntiqin nəzakətli danışığı Kamonu çaş-baş saldı, həyacanlanıb özünü itirdi. Nə cavab verəcəyini bilmədi. Neçə vaxt idi ki, dilinə siqaret dəymirdi. Siqaret çəkən əsirlər Azərbaycan əsgərindən "siqaret var?" deyib siqaret alıb çəkirdilər. Amma o, bunu özünə sığışdırmazdı. Odur ki, duruxdu, dillənmədi.

Qapı açılır. Fotoqraf əlindəki fotoları müstəntiqə verib geri döndü.

Kamo əmin idi ki, fotoqrafın verdikləri onun şəkilləri idi.

Kamo öz-özünə düşündür:

- "Siqaretsiz də ötüşmək olar, fotolarımdan birini mənə versəydi yaxşı olardı. Buradan sağ-salamat çıxsam ömrümün axrına qədər özümlə gəzdirərdim ki, bir də başqasının torpağına qanunsuz girməyin sonu nə olacağını xatırlatsın. Bir də təklif etsə siqaret götürəcəm."- siqaretə baxır.

Müstəntiq:

- Utanmayın, mayor Azaryan, nə böyük şeydir, siqaretdir də.- deyib siqareti Kamonun qarşısına tərəf itələdi.

Kamo:

- Xahiş edirəm ki, məni mayor Azaryan kimi yox, Kamo Azaryan kimi dindirəsiniz. - əlləri əsə-əsə siqaret götürüb yandırdı.

Müstəntiq:

- Məgər, mayor olmaq pisdir ki? Mənim də rütbəm mayordur. Amma, mənim Sizin kimi öz rütbəmi danmaq fikirim yoxdur. Mən biləni burada Sizinlə adi əsir kimi yox, əsir düşmüş mayor kimi rəftar ediblər.

Kamo siqaretdən bir-iki qullab çəkib, toxtadı.

Kamo:

- Sizin Mixayilonun bir sözü mənim çox xoşuma gəlib... "Uzaq sahillərdə" filmdə deyildiyi kimi, "ölmək ölməkdir, elə öz adımla ölərəm". Mən mayor yox, dizayn ustasıyam.

Müstəntiq:

- Dizayn ustası olsanız da, bizim torpaqlara qəsbkar kimi ayaq basmısınız. Ən azından dövlət sərhəddini pozmusunuz. Əsgərlərimiz Sizi xilas edəndə əyninizdə erməni ordusunun zabiti forması olub.

Kamo:

- Düzdür. Paltarımdan da mayor vəsiqəsinin olmasından da xəbərim var.

Müstəntiq:

- Elədirsə, elə mayor kimi də cəza almağınız məsləhət deyilmi? Mayor olmağınızın danmaqla nəyi sübut etmək istəyirsiz?

Kamo:

-Mənası odur ki, sizin torpağa hərbiçi kimi gəlmədiyimi sübüt edim. Mən bu torpağa xəstə dayımı ziyarət etmək üçün ayaq basmışam, heç bir azərbaycanlıya güllə atmamışam. Üstümdən götürülmüş tapancadan iki dəfə gecə vaxtı meşədə üstümə cuman canavarları qorxutmaq üçün atəş açmışam. Bu hərəkətimə görə də Azərbaycan Respublikasının qanunları qarşısında cavab verməyə hazıram.

Müstəntiq:

- Bəs hərbi forma, onu da dayınıza görə geyinmisiz? Sizi bütün izahatlarınızda bunları təkidlə qeyd edirsiniz. – qovluqdakı kağızlara işarə edir.

Kamo:

- Bəli, hərbi formanı da dayımın istəyi ilə geyinmişəm.

Müstəntiq:

-Azərbaycan Respublikasının qanununa görə ancaq törətdiyiniz cinayətə görə cəza alacağınıza əmin ola bilərsiz. Törətmədiyiniz əmələ görə heç kəs Sizi mühakimə edə bilməz. Biz onun marağında da deyilik. - Kamonun dərindən nəfəc aldığını sezib sözünə davam etdi.- Biz də istərdik ki, hansısa ermənінin bizim torpağa pis niyyətlə gəlmədiyinə inanaq. İnanaq ki, erməni xalqı mənliyini tamamilə itirməyib. Ancaq Sizin dediklərinizə inanmaq üçün hələlik elə bir əsaslı dəlil yoxdur. Dediyinizə görə, dayınız da ölüb. Onun dayınız olmağını təsdiq edəcək adam, yaxud sənəd də yoxdur. Ermənilər qəbiristanlıqları elə günə salıblar ki, dayınızın qəbrini tapıb, onun bacısı oğlu olduğunuzu da sübut etmək üçün illərlə vaxt lazımdır.

Kamo:

-Neyləmək olar, görünür mənim də taleyim belə yazılıbmış.- ümidsiz halda başını aşağı saldı.

Müstəntiq yenidən qovluğu vərəqləməyə başladı. Kamoya elə gəldi ki, müstəntiq izahat yazdırmaq üçün kağız arayır.

Kamo:

-Cənab mayor, əsir kazarmasında otumaqdansa, Sizinlə burada oturmaq mənə daha rahatdır. Burada nə qədər çox otursam, qənimətdir. Amma, Sizin vaxtınıza heyfim gəlir, yazacağım izahat əvvəlkilərın təkrarı olcaq, nöqtəsinə kimi.

Müstəntiq:

- Bu şəkil Sizə tanış gəlir, bəlkə harada çəkdirdiyinizi xatırlayasız?- qovluqdan bir foto çıxarıb, Kamonun qarşısına itələyir.

Kamo gözünün ucu ilə şəkilə baxdı. Hərbi formada təbiət qoynunda uzaq məsafədən çəkilmiş şəkıldə onun özü idi.

Təəccübləndi. Əvvəl istədi ki, şəkli əlinə götürüb diqqətlə baxsın, amma, fikrindən danışdı. Deməyə söz tapmadı.

Müstəntiq:

- Siz ki, dizayn ustasısınız. Bəlkə fotoşop hesab edirsiz?

Kamo:

-Yeravanda fotoşopu məndən yaxşı bacaran yoxdur. Sizinkilərin məharətinə heyran olmamaq olmur. Adi gözlə əsl fotodan fəqləndirmək mümkün deyil. Amma Sizə kişi kimi deyirəm ki, mənim dediklərim həqiqətdir. Mən cinayətkar deyiləm, fərqinə varmadan sizin qanunu pozmuş adamam.

Müstəntiq keşikçi əsgəri səslədi.

Müstəntiq:

- Aparın, Kamo Azaryanı.

Əsgər Kamonun əllərinə qandal vurdu. Kamo qapıya yaxınlaşanda müstəntiq başını qaldırmadan dilləndi.

Müstəntiq:

- Kamo Azaroviç.

Kamo ayaq saxladı:

-Eşidirəm.

Müstəntiq:

- Dayınızın qəbrinin tapılması ehtimalı çox azdır. Məsləhətim budur ki, ananızı, qardaş-bacınızı və bir də Vazgenin son sözünü dəqiqliyi ilə xatırlamağa çalışın. Bəlkə də azad olunmağınız üçün ipucu tapıldı. Biz cəllad, qan içən deyilik, heç kimə də günahından artıq cəza verilməsini istəməzdik. Gedə bilərsiz.

Kamo yolboyu fikirləşdi:

"Deyəsən axı, "kişi kimi" sözüm müstəntiqə təsir etdi. Yəqin inanmaq istədi ki, mən cinayətkar deyiləm, adicə qanun pozan bir axmağam. Axı, necə deyim ki, gorbagor Vazgen həmişə mənim başımı doldururdu ki, ata-anamı türklər öldürüblər. Atamı heç xatırlamıram. Amma anamın o vaxtkı şəklini görsəm, bəlkə də tanıya bilərəm."

Müstəntiq bir müddət əlləri ilə başını tutub fikirləşıb ayağa durur. Qovluğunu səliqəyə salıb telefonla zəng etdi.

Müstəntiq:

- Kamo Azaryan dindirildi. Özünü tanıdı.- telefonun o başındakının dediyinə qulaq asır.- Oldu, sənədləşdirib gətirəcəyik.-deyib, əllərini ovuşdurdu.

***

Səhər tezdən Hərbi komissarlığın həyətinə xeyli sayda Kəlbəcərin müxtəlif kəndlərindən qaçqınlar toplaşmağa başlamışdı. Onlar mehribancasına görüşüb bir-birini torpaqlarımızın düşməndən azad olunması münasibəti ilə təbrik edirdilər.

Akiflə İlham həyətə daxil olanda artıq, mətbuat nümayəndələri və telejurnalistlər də gəlmişdilər. Demək olar ki, həyətdə adam əlindən tərpənmək mümkün deyildi. Minik maşını həyətə yaxınlaşır. Zərifə və Kənan maşından düşüb həyətə daxil olurlar. Zərifə hamı ilə salamlaşır. Adamlar ona gözaydınlığı verir. Zərifə oğlu ilə birlikdə bir küncdə dayanmış Akif və İlhama yaxınlaşır, İlhamı qucaqlayir.

***

Kamera qapısının qıfıl yerinə acar salınmasını hiss edən kimi Kamonun ürəyi çırpınmağa başladı, ayağa qalxdı. Son günlər nəyin isə baş verəcəyi ürəyinə dammışdı. Amma nə baş verəcəyini bilmirdi. Hər halda baş verəcək hadisənin onun xeyirinə olacağına əmin idi.

Qapı açıldı.

- Kamo Azaryan, dəhlizə.- deyə, mühafizəçi səsləndi.

Mühafizəçinin mülayim səsi Kamonu ürəkləndirdi. Sakitcə dəhlizə çıxdı. Əllərini irəli uzadıb qollarına qandal vurulmasını gözlədi. Mühafizəçi onun irəli uzadılmş əlini aşağı saldı.

-Lazım deyil.- deyib mühafizəçi kamera qapısını bağlayıb əli ilə çıxışa işarə etdi.

***

Saxlanma məntəqəsinin qapısından çölə çıxana kimi Kamo gözü ilə dustaq maşınının yerini müəyyənləşdirmək istədi. Gözünə dustaq maşını dəymədiyi üçün dönüb mühafizəçiyə baxdı.

-Arxamca gəlin.-deyib mühafizəçi Kamodan irəli keçərək həyətdəki mülkü maşına tərəf addımladı.

***

İkinci mərtəbəyə qalxan kimi əsgər dəhlizin o başını işarə etdi. O, hara gətirildiyini anlamaq istədi. Amma, heç nə anlamayıb əsgərin müşaiyəti ilə dəhlizboyu irəliləməyə başladı. Otaqların birinin yarıaçıq qapısından gözaltı içəri baxıb həkim briqadasını gördü.

Otağa daxil olan kimi əsgər ona kresloda oturmağa yer göstərdi.

Əsgər:

- Əyləşin, indicə mayor da gələcək.-deyib, otaqdan çıxdı.

Əsgərin onu pəncərəsi dəmir barmaqlıqsız otaqda tək qoyub getməsi Kamoya qəribə gəldi. Əynindəki pencəyə diqqətlə baxmaq üçün ayağa qalxdı. Güzgüyə yaxınlaşdı, elə bil ki, əyninə ölçülmüşdü.

- Son günlərdə mənə münasibətdən belə nəticə çıxarmaq olar ki, mənim dediklərim öz təsdiqini tapıb, günahsız olduğum sübut olunub. Yəqin ki, müstəntiq azad olduqdan sonra haraya getmək istədiyimi soruşacaq. Ermənistana getməyə qəti şəkildə razılıq verməyəcəyəm. Xahiş edəcəyəm ki, istənilən üçüncü ölkəyə göndərsinlər. Heyf ki, bu dünyada heç kəsim yoxdur. Ata-anam olsaydı sevinclərinin həddi-hüdudu olmazdı. Atamla salamlaşardım, anamı qucağıma alıb, kinolardakı kimi, o ki var fırladardım, lap elə yalvarana qədər. Yalvarıb, yumuruqlasa da, dayanmazdım... Insan yaşa dolduqca ata-ana qədri bilərmiş…

Kamo öz-özünə fikirləşə-fikirləşə yenidən yayımalanıb kresloda oturdu. Sakit səslə azərbaycan dilində öyrəndiyi sözləri təkrar etməyə başladı.

-Salam. Necəsiz? Mən yaxşıyam. Əkiz qardaş. Kəlbəcər.

Kərəm. Kənan. Ana, anacan. Azərbaycan Respublikası… Qəribədir, müstəntiq niyə bu sözləri öyrənməyi təkid etdi? - deyə fikirləşdi.

Qapı açılan kimi Kamo oturuşunu düzəltdi. İçəri daxil olanın müstəntiq olduğunu görüb ayağa qalxdı. Müstəntiq əlini yumruqlayıb ona tərəf uzatdı.

- Korona əl verib salamlaşmağı bizə qadağan edir. Sən də yumuruğunu mənə tərəf uzat.- yumruqla salamlaşırlar.- Əyləş. Hə, necədir, kostyum xoşuna gəlir?

Kamo:

- Çox gözəldir, elə bil ki, əynimə biçilib! Minnətdaram. Heç bilmirəm, Sizin xəcalətinizdən necə çıxacağam.

Müstəntiq:

- Bu andan sən azadsan. Minnətdarlıq isə, tək mənə düşmür, səni kolluqdan xilas edənlərə, gunahsız olduğunu sübuta yerirmək üçün əzmlə çalışan kriminalistlərə də düşür. Kostyuma görə isə anana minnətdarlıq edərsən. Axı, bu gün sənin ad günündür. Anan oğlunu ad günündə bu geyimdə görmək istəyir.

Kamo mayora diqqətlə qulaq assa da, onun dediyindən heç nə anlamır. Ona elə gəldi ki, otaqda üçüncü bir adam da var. Odur ki, başını ehmalca yana çevirdi. Heç kəsi görməyib çiyinlərini çəkdi.

Müstəntiq:

- Sən Vazgenin son sözlərini unutmayıbsan ki?-deyə, soruşdu.

Kamo:

- Yox. O sözlər heca-heca dediyindən, hələ də qulağımda cingildəyir.

Müstəntiq:

- Necə demişdir, o şərəfsiz?

Kamo:

- Qur...ban...lıq Türk kü...çü...yü... Səni öz əl... lə.. rim... lə öldü...

Müstəntiq:

- Faşist köpəkoğlu. Qanmadı ki, Kərəmi Kamo edə bilər, amma, türk oğlunu o murdar azatamartik kimi tərbiyə edə bilməz. Elə ona görə də gəbərməmişdən qabaq səni öldürmək istəmişdi.

Kamonu soyuq tər basdı. Bir anlığa özünü itirdi. Nə isə demək istədi, dili topuq vurduğu üçün udqunub susdu.

Müstəntiq:

-Səhv etmirəmsə, sən "kişi sözünə" inanansan.

Kamo başı ilə müstəntiqin sözünü təsdiq etdi. Müstəntiq stəkana su süzüb ona uzatdı. Kamo onun üzünə baxaraq qurtum-qurtum içməyə başladı.

Müstəntiq:

- Qonşu otaqda həkim briqadası hazır vəziyyətdədir. Amma mən istəmirəm, daha doğrusu, sənə deyəcəyim sözləri kişi kimi qəbul etdəcəyinə güvənirəm. Söz versən ki, dediklərimi kişi kimi, təmkinlə, mərdanə qəbul edəcəksən.

Kamo başı ilə razılığını bildirdi.

Müstəntiq:

- Yadındadır, sənin qanından DNK üçün nümunə götürüldü. Bax, qan analizi də təsdiq etdi ki, sən əslində Kamo deyilsən. Kənanın ekiz qardaşı... –deyib, Zərifənin 22 mart 1993-cü ildə başına gələn facəni söyləməyə başladı.

Müstəntiq danışdıqca Kamonun gözü önünə erməni yaraqlısının güllələməyə apardığı bacısı, güllə səsindən dəhşətə gəlib qulaqlarını əlləri ilə qapadığı anlar gəldi.

***

Kərəm müstəntiqlə xüdahafizləşib otaqdan çıxdı. Dəhlizlə gedərkən həyətdəki səs-küyü eşidib pəncərədən çölə boylandı. Həyətə toplanmış insanların xeyli hissəsi sevinc dolu baxışlarını intizarla ikinci mərtəbəyə zilləmiş, bəziləri də öz aralarında nəyi isə qızğın müzakirə edirdilər.

Akiflə İlham toplaşanlardan bir az aralıda sakitcə dayanmışdılar. İlhamın bütün nəzəri ikinci mərtəbədə olasa da, Akif həyətdəki insanların keçirdiyi hissləri dərk etməyə çalışırdı.

Növbətçi Kərəmin pilləkənlərlə endiyini görüb ayağa qalxdı.

- Kərəm Yusifzadə?! – deyə, növbətçi şən halda soruşdu.

- Bəli, Kərəm Yusifzadə!- deyib, Kərəm növbətçinin pəncərəsinə yaxınlaşdı. -Buyurun, Azərbaycan Respublikasının şəxsiyyət vəsiqəsidir. Təbrik edirəm! – deyib, şəxsiyyət vəsiqəsini Kərəmə uzatdı.- Gedin, kəlbəcərlilər Sizi gözləyir.

***

Kərəm qapıdan çölə çıxan kimi həyətə dərin bir sükut çökdü. O, yerində dayanıb gözləri ilə anasını tanımağa çalışdı. Kənanın yanında güclə ayaq üstə dayanmış anasını tanıyıb, ona tərəf addımladı.

-Ana, anacan!!!...

***

İlham həyətdəki canlanmanı seyr edə-edə dönüb, gözləri yaşarmış Akifə baxdı.

- Akif müəllim, hazırlaşın! Yollar açılan kimi Sizi Kəlbəcərə aparacam!!!

## FİNAL

10 dekabr 2020-ci il Zəfər Bayramı münasibəti ilə Bakda keçirilmiş hərbi parad görüntüləri.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Ərdoğan:
Hardan sənin oldu bizim Qarabağ?
Adı sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.
İsa bulağının zümzüməsini,
Cabbarın, Seyidin, Xanın səsini,
Babək türbəsini necə pay verim?

***

Ali Baş Komandan İlham Əliyevin:
-"Yaşasın Azərbaycan əsgəri".-sözündən sonra

## TİTR YAZISI

**3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamədən irəli gələn hər hansı öhdəlik yerinə yetirilmədiyi üçün Azərbaycan Ordusu işğal olunmuş ərazilərini hərb yolu ilə azad olunmasına nail oldu.**

Filmin Sonu



AZƏRBAYCAN RESPUBLİKASI
ƏQLİ MÜLKİYYƏT AGENTLİYİ

Intellectual Property Agency of the
Republic of Azerbaijan

ƏSƏRİN QEYDİYYATI HAQQINDA

ŞƏHADƏTNAMƏ

№ 11858

BAKI



Əsərin adı "İlhamın Kəlbəcər sevdası"

Obyektiv forması rəqəm yazısı

Növü ədəbi əsər (tammetrajlı bədii filmin ssenarisi)

Açıqlanması dərc edilməmişdir

Qeydiyyat nömrəsi 05/C-11396-20

Qeydiyyat tarixi 30.12.2020

Müstəsna müəlliflik hüquqlarının sahib(lər)i

Arzuman İlyas oğlu Həsənov

İlbəst Ərzuman qızı Həsənova

Sifariş № Q-492-8e

Şöbə müdiri N. Bədəlbəyli

Mübahisə yaranan hallarda, digər sübutlar olmadıqda, qeydiyyat haqqında Şəhadətnamə məhkəmə tərəfindən müəlliflik prezumpsiyası kimi tanınır ("Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 8, hissə 5)



"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq və Azərbaycan Respublikası Prezidentinin "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" 8 oktyabr 1996-cı il tarixli Sərəncamı ilə verilən səlahiyyətlər əsasında Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

Müstəsna müəlliflik hüquqlarının sahib(lər)inin soyadı, adı, atasının adı: Arzuman İlyas oğlu Həsənov və İlbəst Ərzuman qızı Həsənovanın "İlhamın Kəlbəcər sevdası" əsərini qeydiyyatdan keçirmiş və bu Şəhadətnaməni vermişdir.

İdarə Heyətinin sədri K. İmanov

M.Y.

# MÜNDƏRİCAT

GİRİŞ........................................................................3
TİTR YAZISI.............................................................15
KAMO-KƏRƏM.......................................................104
FİNAL.....................................................117

Yığılmağa verilmiş 21.01.2021
Çapa imzalanmışdır 09.03.2021
Şərti çap vərəqi 25
Format 60X84 1/16
Tirajı 300

Kitab "Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
e-mail: orxan.npm@gmail.com

"Orxan" Nəşriyyat və Poliqrafiya
Müəssisəsi
Direktor: Cəfər Əzizoğlu

Ünvan: Bakı şəhəri
Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə
Tel:(+99412) 562 83 03
Tel:(+99412) 561 58 33